# MARKIN NƏQL ETDİYİ MÜJDƏ

## GİRİŞ

*«Markın nəql etdiyi Müjdə»* «Allahın Oğlu İsa Məsihin Müjdəsinin başlanğıcı» bəyanatı ilə başlayır. İsa burada fəal və səlahiyyətə malik olan Şəxs kimi təsvir olunur.

Onun səlahiyyəti öyrətdiyi təlimdə, cinlərə qalib gəlməsində və insanların günahlarının bağışlanmasında aşkara çıxır. İsa Özü barəsində deyirdi ki, «Bəşər Oğlunun yer üzündə günahları bağışlamaq səlahiyyəti var» (2:10).

Mark İsadan danışarkən Onun barəsində açıq, çox qüdrətli tərzdə nəql edir. O, İsanın dediklərindən və təlimindən daha çox Onun etdiyi işləri vurğulayır. Vəftizçi Yəhyanın meydana çıxması, İsanın vəftizi və sınağa çəkilməsi barədə qısaca giriş verən müəllif dərhal İsanın şəfa vermə xidmətinə və təlim verməsinə keçir. Vaxt getdikcə İsanın ardıcılları Onu daha yaxşı başa düşür, İsanın rəqibləri isə Ona qarşı daha da çox nifrət hissi ilə dolur. Son fəsillər İsanın yer üzündə son həftəsini, xüsusilə, Onun çarmıxa çəkilməsini və dirilməsini təsvir edir.

**Kitabın məzmunu:**

1:1-13 Müjdənin başlanğıcı
1:14–9:50 İsanın Qalileyada ictimai xidməti
10:1-52 Qalileyadan Yerusəlimə
11:1–15:47 İsanın Yerusəlimdəki son günləri

16:1-8 İsanın dirilməsi
16:9-20 Dirilmiş Rəbbin görünməsi və göyə qaldırılması

### *Vəftizçi Yəhyanın gəlişi*
### *(Mat. 3:1-12; Luka 3:1-18; Yəh. 1:19-28)*

1 Allahın Oğlu İsa Məsihin Müjdəsinin başlanğıcı.
2 *Yeşaya peyğəmbərin kitabında belə yazılıb:
«Budur, Sənin önündə Öz elçimi göndərirəm.
O Sənin yolunu hazırlayacaq.
3 *Səhrada nida edənin səsi gəlir:
“Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin”».
4 Yazıldığı kimi vəftiz edən Yəhya çöldə meydana
çıxdı. O, insanların günahlarının bağışlanması üçün
onların tövbə edib vəftiz olunmasını vəz edirdi.
5 Bütün Yəhudeya diyarından olanlar və Yerusəlim
sakinlərinin hamısı onun yanına gəlirdi. Onlar
günahlarını etiraf edərək onun tərəfindən İordan
çayında vəftiz olunurdular. 6 *Yəhya dəvə yunun-
dan paltar geymiş, belinə dəri qurşaq bağlamışdı,
çəyirtkə və çöl balı yeyirdi.
7 Yəhya belə vəz edirdi: «Məndən sonra məndən
daha Qüdrətlisi gəlir. Mən əyilib Onun çarıqlarının
bağını açmağa belə, layiq deyiləm. 8 Mən sizi su ilə
vəftiz etdim, amma O sizi Müqəddəs Ruhla vəftiz
edəcək».

### *İsanın vəftiz olunması və sınağa çəkilməsi*
### *(Mat. 3:13-4:11; Luka 3:21-22; 4:1-13)*

---
* **1:2** Mal. 3:1 * **1:3** Yeş. 40:3 * **1:6** 2Pad. 1:8

9 O günlərdə İsa Qalileyanın Nazaret şəhərindən
gəlib Yəhya tərəfindən İordan çayında vəftiz ol-
undu. 10 İsa sudan çıxan kimi göylərin yarıldığını
və Ruhun göyərçin kimi Öz üzərinə endiyini gördü.
11 *Göylərdən bir səda gəldi: «Sən Mənim sevimli
Oğlumsan, Səndən razıyam».
12 Ruh dərhal İsanı səhraya çəkib-apardı. 13 O,
səhrada qırx gün qaldı və bu müddət ərzində Şeytan
tərəfindən sınağa çəkildi. İsa vəhşi heyvanlar
arasında idi və mələklər Ona xidmət edirdi.

### *İsa xidmətinə başlayır*
### *(Mat. 4:12-17; Luka 4:14-15)*

14 Yəhya həbs olunandan sonra İsa Qalileyaya
gəlib Allahın Müjdəsini* vəz edirdi: 15 *«Vaxt
yetişib, Allahın Padşahlığı yaxınlaşıb. Tövbə edin və
Müjdəyə inanın».

### *İlk şagirdlər*
### *(Mat. 4:18-22; Luka 5:1-11)*

16 İsa Qalileya gölünün sahilindən keçərkən suya
tor atan Şimonu və qardaşı Andreyi gördü. Bu
adamlar balıqçı idi. 17 İsa onlara dedi: «Ardımca
gəlin, Mən sizi elə balıqçı edəcəyəm ki, insan tuta-
caqsınız». 18 Onlar dərhal torları kənara atıb Onun
ardınca getdilər. 19 İsa bir az irəli gedib Zavday oğlu
Yaqubu və qardaşı Yəhyanı gördü. Onlar qayıqda
torlarını düzəldirdilər. 20 İsa dərhal onları çağırdı.

---

* **1:11** Zəb. 2:7; Yeş. 42:1; Mat. 3:17; 12:18; Mark 9:7; Luka 3:21-22
* **1:14** Allahın Müjdəsini – bəzi əlyazmalarda Allahın Padşahlığının Müjdəsini. * **1:15** Mat. 3:1-2

Onlar da qayıqda olan ataları Zavdayı və muzdlu işçiləri qoyub Onun ardınca getdilər.

*İsa Kefernahum sinaqoqunda natəmiz ruhu qovur*
*(Luka 4:31-37)*

21 Onlar Kefernahuma gəldilər. Şənbə günü İsa
sinaqoqa girib təlim öyrətməyə başladı. 22 *Onun
təliminə təəccüblənirdilər, çünki onlara ilahiyy-
atçılar kimi deyil, səlahiyyət sahibi kimi təlim
öyrədirdi. 23 Həmin vaxt onların sinaqoqunda
natəmiz ruha tutulmuş bir nəfər var idi. O çığırdı:
24 «Ey Nazaretli İsa, bizdən nə istəyirsən? Bizi məhv
etməyəmi gəlmisən? Mən bilirəm, Sən Kimsən:
Allahın Müqəddəsisən!» 25 Amma İsa ona qadağan
edib dedi: «Sus və bu adamdan çıx!» 26 Natəmiz
ruh bu adamı sarsıdıb bərkdən çığıraraq ondan
çıxdı. 27 Hamını heyrət bürüdü və onlar bir-
birindən soruşdular: «Bu nədir? Səlahiyyətli yeni
bir təlimdir! O, natəmiz ruhlara belə, əmr edir və
bunlar da Ona itaət edirlər». 28 İsa haqqında xəbər
dərhal Qalileya bölgəsinin hər tərəfinə yayıldı.

*İsa çox adama şəfa verir*
*(Mat. 8:14-17; Luka 4:38-41)*

29 Onlar sinaqoqdan çıxan kimi Yaqub və
Yəhya ilə birgə Şimon və Andreyin evinə getdilər.
30 Şimonun qayınanası qızdırma içində yatırdı. Bunu
dərhal İsaya xəbər verdilər. 31 İsa xəstənin yanına
gəlib əlindən tutaraq onu qaldırdı və qadının
qızdırması düşdü. Qadın onlara xidmət etməyə
başladı.

---

* **1:22** Mat. 7:28-29

32 Axşam gün batanda bütün xəstələri və cinə
tutulmuşları İsanın yanına gətirdilər. 33 Bütün
şəhər əhalisi qapının yanına yığıldı. 34 İsa müxtəlif
xəstəliyə tutulan çox adama şəfa verdi və bir
çox cinləri qovdu. Amma cinlərə danışmağa
izin vermədi, çünki onlar İsanın Kim olduğunu
bilirdilər.

### *İsa vəzini davam etdirir (Luka 4:42-44)*

35 Səhər alaqaranlıqda İsa qalxıb evdən çıxdı və
kimsəsiz bir yerə gedib orada dua etdi. 36 Şimon və
onun yanındakılar İsanın ardınca düşdülər. 37 Onu
tapıb dedilər: «Hamı Səni axtarır». 38 İsa onlara
dedi: «Gəlin başqa yerlərə – ətrafdakı şəhərlərə
gedək və orada da vəz edim, çünki Mən bunun üçün
gəlmişəm». 39 *Beləliklə, İsa onların sinaqoqlarında
vəz edərək və cinləri qovaraq bütün Qalileyanı
gəzib-dolaşdı.

### *İsa cüzamlıya şəfa verir (Mat. 8:1-4; Luka 5:12-16)*

40 Bir gün cüzamlı bir adam İsanın yanına gəldi
və diz çöküb yalvardı: «Əgər istəsən, məni pak edə
bilərsən». 41 İsanın ona rəhmi gəldi. Əlini uzadıb
ona toxundu və dedi: «İstəyirəm, pak ol!» 42 Dərhal
bu adam cüzamdan sağalıb pak oldu, 43 İsa o an
onu yola salıb ciddi tapşıraraq 44 *belə dedi: «Bax
heç kəsə bir söz demə, lakin get, özünü kahinə
göstər. Hər kəsə şəhadət olsun deyə cüzamdan
paklandığın üçün Musanın buyurduğu təqdimləri

* **1:39** Mat. 4:23; 9:35 * **1:44** Lev. 14:1-32

apar». 45 Lakin o çıxıb bu sözü vəz edərək hər
yanda yaymağa başladı. Ona görə də İsa artıq
heç bir şəhərə açıq girə bilmirdi, amma kənarda,
kimsəsiz yerlərdə qalır və adamlar hər tərəfdən
Onun yanına gəlirdi.

# 2

### *İsa iflicə şəfa verir*
### *(Mat. 9:1-8; Luka 5:17-26)*

1 Bir neçə gün sonra İsa yenə Kefernahuma
gələndə Onun evdə olma xəbəri yayıldı. 2 O
qədər çox adam yığıldı ki, qapının yanında dur-
mağa belə, yer qalmamışdı. İsa onlara kəlamı
vəz edirdi. 3 Adamlar dörd nəfərin daşıdığı bir
iflici Onun yanına gətirdilər. 4 Amma böyük izdi-
hama görə onu İsaya yaxın gətirə bilmədilər. Ona
görə də İsa olan evin damını söküb yer açandan
sonra iflici yatdığı döşəklə birgə aşağı endirdilər.
5 İsa onların imanını görəndə iflic olan adama
dedi: «Oğlum, günahların bağışlandı». 6 Lakin
orada oturan bəzi ilahiyyatçılar ürəklərində belə
düşündülər: 7 «Bu Adam niyə belə danışır? Bu
ki küfrdür! Tək Allahdan başqa günahları kim
bağışlaya bilər?» 8 İsa dərhal onların ürəyində
nə fikirləşdiyini ruhən dərk edib dedi: «Niyə
ürəyinizdə belə düşünürsünüz? 9 Bax hansı daha
asandır? İflicə “günahların bağışlandı” deməkmi,
yoxsa “Qalx, döşəyini götür və yeri!” demək?
10 Lakin siz bilin ki, Bəşər Oğlunun yer üzündə
günahları bağışlamaq səlahiyyəti var» və iflicə dedi:
11 «Sənə deyirəm, qalx, döşəyini götür və evinə

get!» 12 Xəstə qalxdı və dərhal döşəyini götürərək
hamının qarşısında çıxıb getdi. Hamı mat qaldı və
Allahı izzətləndirib dedi: «Biz heç vaxt belə şey
görməmişik».

### *Levi şagirdlərə qoşulur (Mat. 9:9-13; Luka 5:27-32)*

13 İsa yenə gölün sahilinə çıxdı. Bütün izdi-
ham Onun yanına toplaşdı və O, camaata təlim
öyrədirdi. 14 Yolu keçəndə vergi yığılan yerdə otu-
ran Halfay oğlu Levini görüb ona dedi: «Ardımca
gəl». O da durub İsanın ardınca getdi.

15 İsa Levinin evində süfrəyə oturanda bir
çox vergiyığanlarla günahkarlar gəlib Onunla
və şagirdləri ilə birgə oturdular. Çünki İsanın
ardınca gedənlər çox idi. 16 Fariseylərdən olan
ilahiyyatçılar* İsanın günahkarlar və vergiyığanlarla
birgə yemək yediyini görüb Onun şagirdlərinə
dedilər: «O niyə vergiyığanlar və günahkarlarla
birgə yemək yeyir?»† 17 İsa bunu eşidəndə onlara
dedi: «Sağlamların deyil, xəstələrin həkimə ehtiyacı
var. Mən salehləri deyil, günahkarları çağırmaq‡
üçün gəlmişəm».

### *Oruc barəsində sual (Mat. 9:14-17; Luka 5:33-39)*

18 Yəhyanın şagirdləri və fariseylər oruc
tuturdular. Bəzi adamlar İsanın yanına gəlib
soruşdular: «Nə üçün Yəhyanın şagirdləri və

---

* **2:16** Fariseylərdən olan ilahiyyatçılar – bəzi əlyazmalarda İlahiyyatçılar və fariseylər. † **2:16** Yemək yeyir – bəzi əlyazmalarda yeyib-içir. ‡ **2:17** Çağırmaq – bəzi əlyazmalarda tövbəyə çağırmaq.

fariseylərin şagirdləri oruc tutur, amma Sənin
şagirdlərin oruc tutmur?»
19 İsa onlara cavab
verdi: «Bəy yanlarında olanda sağdışı və soldışı
oruc tutarmı? Nə qədər ki bəy onların yanındadır,
onlar oruc tutmazlar.
20 Lakin bəyin onların
arasından aparılacağı günlər gələcək və o zaman
oruc tutacaqlar.

21 Heç kim köhnə paltara təzə parçadan yamaq
vurmaz. Yoxsa təzə yamaq köhnə paltardan qopar
və yırtıq daha pis olar.
22 Heç kim təzə şərabı
köhnə tuluqlara doldurmaz. Yoxsa şərab tuluqları
partladar, həm şərab, həm də tuluqlar zay olar.
Təzə şərab təzə tuluqlara doldurulmalıdır».

### *Şənbə günü haqqında təlim (Mat. 12:1-8; Luka 6:1-5)*

23 *Bir Şənbə günü İsa taxıl zəmiləri arasından
keçirdi. Şagirdləri yoldan keçərkən sünbülləri
qırmağa başladılar.
24 Fariseylər Ona dedilər:
«Bəs niyə onlar Şənbə günü qadağan olunan
işləri görürlər?»
25 *İsa onlara dedi: «Davud və
yanındakılar ac və möhtac olanda nə etdiklərini
heç oxumamısınızmı?
26 O, baş kahin Evyatarın
dövründə Allahın evinə girdi; kahinlərdən
başqa heç kəsə yeməyə icazə verilməyən təqdis
çörəklərini yedi, yanındakılara da verdi».
27 Sonra
İsa onlara dedi: «İnsan Şənbə günü üçün deyil,
Şənbə günü insan üçün yaradılıb.
28 Bax Bəşər Oğlu
Şənbə gününün də Sahibidir».

* **2:23** Qanun. 23:25 * **2:25** Lev. 24:9; 1Şam. 21:1-6

# 3

### *Əli qurumuş adamın şəfası*
### *(Mat. 12:9-14; Luka 6:6-11)*

1 İsa yenə də sinaqoqa girdi. Orada əli quru-
muş bir adam var idi. 2 Bəzi adamlar İsanı it-
tiham etmək məqsədi ilə Ona göz qoyurdular ki,
görsünlər, bu adama Şənbə günü şəfa verəcək ya
yox. 3 İsa əli qurumuş adama dedi: «Qabağa çıx!»
4 Sonra İsa onlara dedi: «Hansına icazə var, Şənbə
günü yaxşılıq, yoxsa pislik etməyə, kiminsə canını
xilas etməyə, yoxsa öldürməyə?» Onlarsa susurdu.
5 İsa ətrafındakılara qəzəblə baxdı və onların inad-
kar ürəkli olduqlarına görə kədərlənib o adama
dedi: «Əlini uzat!» O, əlini uzatdı və əli əvvəlki
halına qayıtdı. 6 Fariseylər çıxıb İsanı necə məhv
etmək barədə dərhal hirodçularla məsləhətləşdilər.

### *İsa xəstələrə şəfa verir*
### *(Mat. 4:24-25; Luka 6:17-19)*

7 İsa şagirdləri ilə birgə gölün bir tərəfinə çəkildi.
Onun ardınca isə Qalileyadan böyük izdiham
gəldi. 8 İsanın etdiklərini eşidəndə Onun yanına
Yəhudeyadan, Yerusəlimdən, İdumeyadan, İordan
çayının o biri tayından, Sur və Sidon bölgəsindən
çoxlu adam gəldi. 9 *İsa izdiham Onu sıxışdırmasın
deyə şagirdlərindən xahiş etdi ki, Onun üçün bir
qayıq hazırlasınlar. 10 Çünki O, çox adama şəfa
vermişdi. Buna görə bütün xəstələr Ona toxunmaq
üçün can atırdılar. 11 Natəmiz ruhlar İsanı görəndə
önündə yerə sərilib ucadan çığırırdılar: «Sən Allahın

* **3:9** Mark 4:1; Luka 5:1-3

Oğlusan!» 12 Lakin İsa onlara qadağan etdi ki, Onun
kim olduğunu deməsinlər.

### *On İki şagird*
### *(Mat. 10:1-4; Luka 6:12-16)*

13 İsa dağa çıxaraq Özü istədiyi adamları yanına
çağırdı və onlar yanına gəldilər. 14 İsa on iki
nəfəri həvari adlandıraraq* təyin etdi ki, bu
adamlar Onun yanında olsun, həm də onları vəz
etməyə göndərsin, 15 həmçinin cinləri qovmaq†
səlahiyyətinə malik olsunlar. 16 Beləliklə, İsa bu
on iki nəfəri təyin etdi: Peter adlandırdığı Şimon,
17 Bene-Rageş, yəni «İldırım oğulları» adlandırdığı
Zavday oğlu Yaqub və Yaqubun qardaşı Yəhya,
18 Andrey, Filip, Bartalmay, Matta, Tomas, Halfay
oğlu Yaqub, Tadday, Kənançı‡ Şimon 19 və İsaya
xəyanət edən Yəhuda İskaryot.

### *İsa və Baal-Zevul*
### *(Mat. 12:22-32; Luka 11:14-23)*

20 Sonra İsa evə getdi.§ Yenə də izdiham
yığıldığına görə onlar yeməyə belə, imkan tapa
bilmədilər. 21 İsanın ailə üzvləri bu barədə eşidəndə
Onu aparmağa gəldilər. Çünki fikirləşirdilər ki, O,
ağlını itirib. 22 *Yerusəlimdən gələn ilahiyyatçılar
isə deyirdilər: «O, Baal-Zevula tutulub, cinlərin
başçısının gücü ilə cinləri qovur».

---

* **3:14** Həvari adlandıraraq – bəzi əlyazmalarda bu sözlər yoxdur.
† **3:15** Cinləri qovmaq – bəzi əlyazmalarda xəstəliklərə şəfa vermək və cinləri qovmaq.
‡ **3:18** Kənançı – Romalılara qarşı müqəddəs müharibəyə hazırlaşan yəhudi millətçi təşkilatının üzvünə verilən ad.
§ **3:20** İsa evə getdi – bəzi əlyazmalarda onlar evə getdilər.
* **3:22** Mat. 9:34; 10:25

23 İsa ilahiyyatçıları yanına çağırıb onlarla bu
barədə məsəllərlə danışdı: «Şeytan Şeytanı necə
qova bilər? 24 Əgər bir padşahlıq öz daxilindən
bölünübsə, davam gətirməz. 25 Əgər bir ev öz
daxilindən bölünübsə, davam gətirməz. 26 Şeytan
da özünə qarşı qalxıb öz-özünə bölünübsə, davam
gətirməz, yalnız axırı çatar. 27 Heç kim güclü
adamın evinə girib əvvəlcə onun əl-qolunu
bağlamadan malını qarət edə bilməz. Gərək o
adamın əvvəlcə əl-qolunu bağlasın, sonra evini
qarət etsin.

28 *Sizə doğrusunu deyirəm: bütün günahlar
və nə qədər küfr söylənərsə, bəşər övladlarına
bağışlanacaq. 29 Lakin kim Müqəddəs Ruha küfr
edərsə, heç vaxt bağışlanmayacaq və günahı**
boynunda əbədi qalacaq». 30 İsa bunu «Onda
natəmiz ruh var» dediklərinə görə söylədi.

### *İsanın anası və qardaşları kimdir? (Mat. 12:46-50; Luka 8:19-21)*

31 İsanın anası və qardaşları gəldi. Onlar bayırda
durdular və İsanın yanına xəbər göndərib Onu
çağırdılar. 32 Bir kütlə adam İsanın ətrafında otur-
muşdu. Ona xəbər verdilər: «Budur, anan və bacı-
qardaşların†† bayırda dayanıb Səni istəyirlər». 33 İsa
onlara cavab verdi: «Mənim anam və qardaşlarım
kimdir?» 34 Sonra ətrafında oturanlara baxaraq
dedi: «Mənim anam və qardaşlarım bunlardır.

* **3:28** Luka 12:10 ** **3:29** Günahı – bəzi əlyazmalarda məhkumiyyəti. †† **3:32** Bacı-qardaşların – bəzi əlyazmalarda qardaşların.

35 Çünki kim Allahın iradəsini yerinə yetirirsə,
Mənim qardaşım, bacım və anam odur».

# 4

### *Səpilən toxum məsəli*
### *(Mat. 13:1-23; Luka 8:4-15)*

1 *İsa gölün sahilində yenə xalqa təlim öyrətməyə
başladı. Yanına elə böyük izdiham toplaşdı ki,
Özü bir qayığa minib gölün içərisində oturdu.
Bütün izdiham isə gölün sahilində dayanmışdı.
2 İsa onlara məsəllərlə bir çox şey öyrədərək Öz
təlimində belə dedi: 3 «Qulaq asın: bir əkinçi
toxum səpməyə çıxdı. 4 Səpin zamanı toxumlar-
dan bəzisi yol kənarına düşdü və quşlar gəlib on-
ları dənlədi. 5 Bəzisi torpağı çox olmayan daş-
kəsəkli yerə düşdü. Torpağı dərin olmadığına görə
tez cücərdi. 6 Lakin günəş doğanda qarsalandı və
kökü olmadığına görə qurudu. 7 Bəzisi tikanlar
arasına düşdü. Tikanlar böyüyüb onları boğdu və
bu toxumlar bar vermədi. 8 Başqaları isə münbit
torpağa düşdü. Ona görə də böyüyüb artdı və
bəzisi otuz, bəzisi altmış, bəzisi də yüz qat səmərə
verdi». 9 Daha sonra İsa dedi: «Eşitməyə qulağı olan
eşitsin!»

10 İsa tək qalanda On İki şagird və ətrafında olan-
lar məsəllərin izahını soruşdular. 11 O onlara
dedi: «Allahın Padşahlığının sirri sizə açılmışdır,
amma kənarda olanlara hər şey məsəllərlə deyilir.
12 *Belə ki
“Gördükcə görsünlər, amma qanmasınlar,

---

* **4:1** Luka 5:1-3 * **4:12** Yeş. 6:9-10; Yəh. 12:39-40; Həv. 28:26-27

Eşitdikcə eşitsinlər, amma anlamasınlar,
Yoxsa onlar dönüb bağışlanar”».

13 İsa onlara dedi: «Siz bu məsəli anlamırsınızmı?
Bəs bütün məsəlləri necə başa düşəcəksiniz?
14 Əkinçi Allahın kəlamını əkir. 15 Daxilinə kəlam
əkilən bəzi insanlar yol kənarına düşən toxumlara
bənzəyir. Bunlar kəlamı eşidəndə dərhal Şeytan
gəlib əkilən kəlamı götürüb aparır. 16 Daş-kəsəkli
yerlərə səpilən bunlardır: kəlamı eşidəndə dərhal
sevinclə qəbul edirlər. 17 Lakin onlarda kök
olmadığına görə dözümləri az olur, kəlama görə
əziyyət və təqibə məruz qalan kimi yıxılırlar.
18 Tikanlar arasına səpilən başqaları isə bunlardır:
kəlamı eşidirlər, 19 lakin bu dövrün qayğıları, var-
dövlətin aldadıcılığı və başqa şeylərə olan ehtiraslar
araya girib kəlamı boğur və kəlam barsız olur.
20 Münbit torpağa səpilənlərsə bunlardır: onlar
kəlamı eşidib qəbul edir, bəzisi otuz, bəzisi altmış,
bəzisi isə yüz qat səmərə verir».

### *Çıraq məsəli*
### *(Luka 8:16-18)*

21 *İsa onlara dedi: «Çırağı qabın yaxud yatağın
altına qoymaq üçünmü gətirirsiniz? O, çıraqdana
qoymaq üçün deyilmi? 22 *Elə gizli bir şey yoxdur
ki, aşkara çıxmasın və elə örtülü bir şey yoxdur ki,
aydın olmasın. 23 Eşitməyə qulağı olan eşitsin!»
24 *İsa yenə onlara dedi: «Eşitdiyinizə diqqət edin:
hansı ölçü ilə ölçsəniz, sizin üçün də eyni ölçü ilə
ölçüləcək və daha artıq veriləcək. 25 *Çünki kimin

* **4:21** Mat. 5:15; Luka 11:33 * **4:22** Mat. 10:26; Luka 12:2
* **4:24** Mat. 7:2; Luka 6:38 * **4:25** Mat. 13:12; 25:29; Luka 19:26

varıdırsa, ona daha çox veriləcək. Amma kimin yoxudursa, əlində olan da ondan alınacaq».

### *Cücərmiş toxum məsəli*

26 Sonra İsa dedi: «Allahın Padşahlığı torpağa
toxum səpən əkinçiyə bənzəyir. 27 O, gecə yatır,
gündüz qalxır. Toxum cücərib boy atır, amma
əkinçi bunun necə baş verdiyini bilmir. 28 Torpaq
özü bar gətirir. Əvvəl cücərti çıxır, sonra sünbül,
daha sonra sünbülün dənləri iriləşib yetişir.
29 *Məhsul yetişəndə əkinçi dərhal oraq vurur,
çünki biçin vaxtı gəlmişdir».

### *Xardal toxumu məsəli (Mat. 13:31-32,34; Luka 13:18-19)*

30 Sonra İsa belə dedi: «Allahın Padşahlığını nəyə
bənzədək? Onu hansı məsəllə göstərək? 31 O,
xardal toxumuna bənzəyir ki, yer üzündə torpağa
əkilən toxumların ən kiçiyi olsa da, 32 əkiləndən
sonra böyüyüb bütün bostan bitkilərindən hündür
olur. O qədər böyük qol-budaq atır ki, göydə uçan
quşlar onun kölgəsində yuva qura bilər».

33 İsa xalqın başa düşəcəyi dərəcədə buna
bənzər çoxlu məsəllərlə kəlam söyləyirdi; 34 onlara
məsəlsiz söz deməzdi. Amma Öz şagirdləri ilə tək
qalanda hər şeyi izah edirdi.

### *İsa tufanı yatırır (Mat. 8:23-27; Luka 8:22-25)*

35 Həmin gün axşam düşəndə İsa şagirdlərinə dedi:
«Gəlin o biri sahilə keçək». 36 Şagirdlər camaat-
dan ayrılaraq İsanı mindiyi qayıqla birgə apardılar;

* **4:29** Yoel 3:13; Yəh. 4:44

onun yanında başqa qayıqlar da var idi. 37 Bu
vaxt böyük bir tufan qopdu. Dalğalar qayığa elə
hücum çəkdi ki, su artıq onun içinə doldu. 38 İsa
qayığın arxa tərəfində başını yastığa qoyub yatırdı.
Şagirdlər Onu oyadaraq dedilər: «Müəllim! Axı biz
həlak oluruq! Bu Səni narahat etmirmi?» 39 İsa
durub küləyə qadağan etdi və gölə dedi: «Sus, sakit
ol!» Külək dayandı və dərin sükut çökdü. 40 İsa
onlara dedi: «Niyə qorxursunuz? Hələ imanınız
yoxdurmu?» 41 Onlar dəhşətə düşüb bir-birindən
soruşdular: «Bu Adam kimdir ki, külək də, göl də
Ona itaət edir?»

# 5

### *Cinə tutulmuş adam sağaldılır*
### *(Mat. 8:28-34; Luka 8:26-39)*

1 Onlar gölün o biri sahilində yerləşən
Gerasalıların* diyarına getdilər. 2 İsa qayıqdan
düşən kimi qəbir mağaralarından natəmiz ruha
tutulmuş bir adam Onunla qarşılaşdı. 3 O,
mağaralarda yaşayırdı və heç kim onu hətta
zəncirləyərək saxlaya bilmirdi. 4 Neçə dəfə ona
buxov, zəncir vurmuşdular, lakin o, zəncirləri
qırmış, buxovları parçalamışdı. Heç kəsin onu
sakit etməyə gücü çatmırdı. 5 Həmişə, gecə-gündüz
qəbiristanlıqda, dağlarda çığırır və özünü daşlarla
yaralayırdı. 6 O, İsanı uzaqdan görəndə qaçıb Ona
səcdə qıldı, 7 bərkdən çığıraraq dedi: «Ey İsa, Allah-
Taalanın Oğlu, məndən nə istəyirsən? Səni and
verirəm Allaha, mənə iztirab vermə!» 8 Çünki İsa

* **5:1** Gerasalıların – bəzi əlyazmalarda Qadaralıların (Mat. 8:28).

ona demişdi: «Ey natəmiz ruh, bu adamdan çıx!»
9 Sonra İsa ondan soruşdu: «Sənin adın nədir?»
O cavab verdi: «Mənim adım Qoşundur, çünki biz
çoxuq». 10 Ruhları bu diyardan qovmasın deyə o,
İsaya çox yalvardı.

11 Orada – dağın yamacında böyük bir donuz
sürüsü otlayırdı. 12 Natəmiz ruhlar İsaya yal-
vardılar: «Bizi donuzlara göndər ki, onların içinə
girək». 13 İsa onlara izin verdi. Natəmiz ruhlar
adamdan çıxıb donuzların içinə girdi. İki min baş
heyvandan ibarət sürü də uçurumdan aşağı, gölə
atılıb orada boğuldu.

14 Donuz otaranlar qaçıb bu xəbəri şəhər və
kəndlərdə yaydılar. Camaat nə baş verdiyinə
tamaşa etməyə gəldi. 15 Onlar İsanın yanına
gəldilər, əvvəlcə bir qoşun cinə tutulmuş adamın
geyinmiş və ağıllanmış oturduğunu görüb qorx-
uya düşdülər. 16 Hadisəni görənlər cinə tutulmuş
adamın başına gələnlər və donuzlar haqqında ca-
maata söylədilər. 17 İsaya yalvarmağa başladılar ki,
onların bölgəsindən çıxsın. 18 İsa qayığa minəndə
əvvəlcə cinə tutulmuş adam Ona yalvardı ki, İsanın
yanında qalsın. 19 İsa ona izin vermədi, amma dedi:
«Evinə, qohum-əqrəbanın yanına get, Rəbbin sənə
etdiyi hər şeyi və sənə necə mərhəmət göstərdiyini
onlara danış». 20 Bu adam da gedib İsanın ona et-
diyi hər şeyi Dekapolis bölgəsində yaymağa başladı
və hamı heyrətləndi.

### *Qızın dirilməsi və qadının şəfa tapması*
### *(Mat. 9:18-26; Luka 8:40-56)*

21 İsa yenə qayıqla o biri sahilə keçəndə yanına
böyük bir izdiham yığıldı. O, gölün sahilində idi.
22 Sinaqoq rəislərindən Yair adlı bir adam gəlib
İsanı görəndə ayaqlarına düşdü. 23 Ona çox yalvarıb
dedi: «Qızcığazım can üstündədir. Gəl əllərini onun
üstünə qoy ki, sağalıb yaşasın». 24 İsa da onunla
birlikdə getdi. Ardınca böyük bir izdiham gedərək
hər tərəfdən Onu sıxışdırırdı.

25 Orada on iki il qanaxma xəstəliyinə tutulan
bir qadın var idi. 26 O, neçə həkimin əlindən
xeyli əzab çəkmiş, bütün varını buna sərf etsə də,
vəziyyəti yaxşılaşmamış, daha da pisləşmişdi. 27 Bu
qadın İsa haqqında eşidib izdihamın içindən keçərək
Onun arxasından gəldi və Onun paltarına toxundu.
28 Çünki bu cür düşünürdü: «Heç olmasa paltarına
toxunsam, sağalaram». 29 Dərhal onun qanaxması
kəsildi və bildi ki, bədənindəki xəstəlikdən sağaldı.
30 İsa dərhal bildi ki, Ondan bir qüvvə çıxdı və
izdihamın içində dönüb soruşdu: «Paltarıma toxu-
nan kim idi?» 31 Şagirdləri Ona cavab verdilər:
«Görürsən ki, izdiham Səni sıxışdırır. Necə soruşa
bilərsən ki, Mənə toxunan kim idi?» 32 Bunu edəni
görmək üçün İsa ətrafa baxdı. 33 Qadınsa özünə nə
olduğunu bildi. Qorxudan titrəyərək gəlib İsanın
ayağına düşdü və bütün həqiqəti Ona söylədi. 34 İsa
da ona dedi: «Qızım, imanın səni xilas etdi. Arxayın
get və xəstəliyindən sağal».

35 İsa hələ danışırdı ki, sinaqoq rəisinin evindən
adamlar gəlib dedi: «Qızın öldü. Daha Müəllimi
niyə narahat edirsən?» 36 Lakin İsa bu sözə məhəl

qoymayaraq† sinaqoq rəisinə dedi: «Qorxma,
yalnız iman et!» 37 O, Peter, Yaqub və Yaqubun
qardaşı Yəhyadan başqa heç kimi ardınca gəlməyə
qoymadı. 38 Onlar sinaqoq rəisinin evinə gələndə
İsa çox hay-küy, ağlaşıb nalə çəkənlər gördü. 39 İsa
içəri girəndə onlara dedi: «Niyə hay-küy salıb
ağlaşırsınız? Uşaq ölməyib, sadəcə olaraq yatıb».
40 Onlar İsaya güldülər. Belə olanda İsa hamını
bayıra çıxarandan sonra uşağın ata-anasını, Özü
ilə gələnləri götürüb uşaq olan yerə girdi. 41 İsa
uşağın əlindən tutub dedi: «Talita qum!» Bunun
mənası belədir: «Qızcığaz, sənə deyirəm: qalx!»
42 On iki yaşlı qız dərhal qalxıb gəzməyə başladı.
O an oradakılar tamamilə mat qaldı. 43 İsa onlara
qadağan etdi ki, bunu heç kəs bilməsin və sonra
dedi ki, qıza yemək versinlər.

# 6

### *İsa Öz yurdunda rədd edilir*
### *(Mat. 13:53-58; Luka 4:16-30)*

1 İsa oradan ayrılıb Öz yurduna gəldi. Şagirdləri
də Onun ardınca gəlirdi. 2 Şənbə günü olanda O,
sinaqoqda təlim öyrətməyə başladı. Onu dinləyən
adamların çoxu təəccüblənərək dedi: «Bu Adamda
belə şeylər haradandır? Bu necə hikmətdir, Ona
verilib? Bu cür möcüzələr Onun əlindən necə gəlir?
3 Bu Adam həmin dülgər deyilmi? Məryəmin oğlu,
Yaqubun, Yusifin, Yəhudanın və Şimonun qardaşı
deyilmi? Onun bacıları burada – bizim aramızda

---

† **5:36** Bu sözə məhəl qoymayaraq – bəzi əlyazmalarda bu sözü eşidib.

yaşamırmı?» Onların İsaya acığı tutdu. 4 *İsa on-
lara dedi: «Bir peyğəmbərə öz yurdundan, qohum-
əqrəbaları arasından və öz evindən başqa heç bir
yerdə xor baxmazlar». 5 Orada O heç bir möcüzə
yarada bilmədi, yalnız bir neçə xəstənin üzərinə əl
qoyub şəfa verdi. 6 İsa onların imansızlığına heyrət
edirdi. Sonra ətraf kəndlərdə təlim öyrədərək
oraları gəzib-dolaşdı.

### *On İki şagirdə verilən vəzifə*
### *(Mat. 10:1-15; Luka 9:1-6; 10:1-12)*

7 İsa On İki şagirdi yanına çağırıb onları iki-
iki göndərməyə başladı və onlara natəmiz ruhlar
üzərində səlahiyyət verdi. 8 *Onlara tapşırdı ki,
yol üçün əsadan başqa heç nə – nə çörək, nə torba,
nə də qurşaqlarında pul götürsünlər, 9 ayaqlarına
səndəl geysələr də, əyinlərinə iki köynək gey-
inməsinlər. 10 İsa onlara dedi: «Harada bir evə
girsəniz, çıxanacan orada qalın. 11 *Harada sizi
qəbul etməyib sizə qulaq asmaq istəməzlərsə,
oradan ayrılarkən onlara qarşı şəhadət olsun deyə
ayaqlarınızın tozunu çırpın».* 12 Onlar da yola
düşdülər və vəz edərək insanları tövbəyə çağırdılar.
13 *Çoxlu cin çıxartdılar, yağla məsh edərək çox
xəstəyə şəfa verdilər.

### *Yəhyanın edamı*
### *(Mat. 14:1-12; Luka 9:7-9)*

---

* **6:4** Mat. 13:57; Luka 4:24; Yəh. 4:44 * **6:8** Luka 10:4-11
* **6:11** Həv. 13:51 * **6:11** Tozunu çırpın – bəzi əlyazmalarda tozunu çırpın. Sizə doğrusunu deyirəm: qiyamət günü Sodom və Homorranın halı o şəhərin halından daha asan olacaq (Mat. 10:15).
* **6:13** Yaq. 5:14

14 *Padşah Hirod da olanları eşitdi, çünki İsanın
adı tanınırdı. Adamlar deyirdilər: «Vəftiz edən
Yəhya ölülər arasından dirilib. Buna görə də O,
möcüzələr yaradır». 15 Digərləri isə deyirdilər:
«Bu, İlyasdır». Bəziləri də deyirdi: «Keçmişdəki
peyğəmbərlərdən birinə oxşar peyğəmbərdir».
16 Amma Hirod bunu eşidəndə dedi: «Bu, boynunu
vurdurduğum Yəhyadır, dirilib!»

17 *Hirod qardaşı Filipin arvadı Hirodiyaya
görə Yəhyanı tutduraraq qollarını qandalladıb
zindana saldırmışdı. Çünki Hirod Hirodiyanı özünə
arvad olaraq almışdı 18 və Yəhya Hiroda demişdi:
«Qardaşının arvadını almaq sənə qadağandır».
19 Hirodiya Yəhyaya qarşı kin saxlayıb onu
öldürmək niyyətinə düşmüşdü, amma bunu edə
bilmirdi. 20 Çünki Hirod Yəhyanın saleh və
müqəddəs bir adam olduğunu bildiyinə görə ondan
qorxub onu qoruyurdu. Hirod ona qulaq asanda
çaşqınlığa düşdü,† buna baxmayaraq, onu həvəslə
dinləyirdi.

21 Bir gün Hirodiyanın əlinə yaxşı bir fürsət
düşdü. Hirod ad günündə əyanlarına, minbaşılara
və Qalileyanın nüfuzlu şəxslərinə ziyafət verdi.
22 Ziyafət zamanı Hirodiyanın qızı‡ içəri daxil
olub rəqs etdi. Bu, Hirodun və qonaqlarının
xoşuna gəldi. Padşah qıza dedi: «Ürəyin istəyəni
məndən dilə, mən də sənə verim». 23 Sonra
möhkəm and içərək yenə dedi: «Məndən hər nə
istəsən, hətta padşahlığımın yarısını belə, istəsən,

---

* **6:14** Mat. 16:14; Mark 8:28; Luka 9:19 * **6:17** Luka 3:19-20
† **6:20** Çaşqınlığa düşdü – bəzi əlyazmalarda çox məşğul idi. ‡ **6:22**
Hirodiyanın qızı – bəzi əlyazmalarda Hirodun qızı Hirodiya.

sənə verəcəyəm». 24 Qız isə çıxıb anasından soruşdu:
«Mən nə istəməliyəm?» O cavab verdi: «Vəftiz
edən Yəhyanın başını». 25 Qız o saat padşahın
yanına qaçdı və öz istəyini dedi: «İstəyirəm ki,
Vəftizçi Yəhyanın başını dərhal bir sini içində
mənə verəsən». 26 Padşahı dərin kədər bürüdü,
amma içdiyi andlara və qonaqlara görə qızın
sözünü yerə salmaq istəmədi. 27 Padşah dərhal bir
cəllad göndərib Yəhyanın başını gətirməyi əmr etdi.
Cəllad gedib zindanda Yəhyanın boynunu vurdu
28 və onun başını bir sini içində gətirib qıza verdi.
Qız da onu anasına verdi. 29 Yəhyanın şagirdləri
isə bunu eşidəndə gəlib onun cəsədini götürdülər və
qəbirə qoydular.

### *İsa beş min nəfəri doydurur*
### *(Mat. 14:13-21; Luka 9:10-17; Yəh. 6:1-14)*

30 Həvarilər İsanın yanına yığıldı və gördükləri
işlər, öyrətdikləri təlim haqqında Ona nəql etdilər.
31 İsa onlara dedi: «Gəlin kimsəsiz yerdə bir az
dincəlin». Çünki gəlib-gedən çox olduğundan yemək
yeməyə belə, vaxt tapmırdılar.
32 Onlar da ayrılıb qayığa minərək hər biri
təkbaşına kimsəsiz bir yerə getdilər. 33 Gedərkən
camaat onları gördü və çoxu tanıdı; bütün
şəhərlərdən axışıb piyada getdilər, onlardan qabaq
oraya çatdılar.§ 34 *İsa sahilə düşəndə böyük bir
izdiham gördü və onlara rəhmi gəldi. Çünki onlar
çobansız qoyunlara bənzəyirdi. İsa onlara çox şeylər
haqqında təlim öyrətməyə başladı.

---

§ **6:33** Çatdılar – bəzi əlyazmalarda çatdılar və İsanın başına yığıldılar. * **6:34** Say. 27:17; 1Pad. 22:17; 2Saln. 18:16; Yez. 34:5; Zək. 10:2; Mat. 9:36

35 Vaxt keçirdi. Şagirdləri gəlib İsaya dedilər: «Bura
çöllükdür, artıq gecdir. 36 Camaatı burax, qoy
gedib ətrafdakı kənd və obalardan özlərinə bir
şey alıb yesinlər».** 37 Amma İsa onlara cavab
verdi: «Onlara yeməyi siz verin». Şagirdlər İsaya
dedilər: «Bəlkə gedib iki yüz dinarlıq çörək alaq
və onlara verək ki, yesinlər?» 38 Amma İsa onlara
dedi: «Gedin baxın, neçə çörəyiniz var?» Onlar
da baxıb dedilər: «Beş çörəyimiz və iki balığımız
var». 39 İsa onlara əmr etdi ki, camaatı dəstə-dəstə
göy otların üstündə oturtsunlar. 40 Camaat yüz-
yüz, əlli-əlli dəstə şəklində oturdu. 41 İsa beş çörəyi
və iki balığı götürüb göyə baxaraq şükür duası
etdi. Sonra çörəyi bölüb şagirdlərinə verdi ki, ca-
maata paylasınlar. İki balığı da hamıya bölüşdürdü.
42 Hamı yeyib-doydu. 43 Artıq qalan çörək və balıq
hissələrini yığdılar, on iki zənbil doldu. 44 Çörəkləri
yeyən kişilərin sayı beş min nəfər idi.

### *İsa suyun üstü ilə yeriyir (Mat. 14:22-33; Yəh. 6:15-21)*

45 Bundan dərhal sonra İsa camaatı evlərinə
göndərərkən şagirdlərini də məcbur etdi ki, qayığa
minib Özündən əvvəl o biri sahilə – Bet-Saydaya
keçsinlər. 46 İsa camaatı yola salandan sonra dua
etmək üçün dağa çıxdı. 47 Axşam olanda qayıq gölün
ortasında idi. Amma İsa quruda tək dayanmışdı.
48 O gördü ki, şagirdləri güclə avar çəkir, çünki külək

---

** **6:36** Özlərinə bir şey alıb yesinlər – bəzi əlyazmalarda özlərinə çörək alsın, çünki yeməyə bir şeyləri yoxdur.

onlara qarşı əsirdi. Gecənin dördüncü növbəsi†† İsa
gölün üstü ilə yeriyərək onların yanına gəldi və on-
ları keçmək istədi. 49 Şagirdlərsə İsanın gölün üstü ilə
yeridiyini görəndə Onu bir kabus bilib qışqırdılar.
50 Çünki hamı Onu görüb lərzəyə düşmüşdü. Lakin
bu anda İsa onlara müraciət edib dedi: «Cəsarətli
olun, Mənəm, qorxmayın!» 51 Qayığa minib onlara
qoşuldu. Külək də sakitləşdi. Hamı tamamilə mat
qaldı. 52 Çünki inadkar ürəkli olduqlarına görə
çörəklə bağlı işi hələ də başa düşməmişdilər.

### *İsa Ginesarda xəstələrə şəfa verir (Mat. 14:34-36)*

53 İsa və şagirdlər gölü keçib Ginesar sahilinə
çatdılar və qayığı bağladılar. 54 Onlar qayıqdan
düşən kimi camaat İsanı tanıdı 55 və qaçıb
ətraf yerləri gəzib-dolaşdılar. İsanın harada
olduğunu eşidəndə xəstələri yataqlar üstündə
oraya gətirməyə başladılar. 56 İsanın getdiyi hər
yerdə – kəndlərdə, şəhərlərdə, obalarda xəstələri
gətirib meydanlara qoyurdular. Xəstələr heç
olmasa İsanın paltarının ətəyinə toxunmaq üçün
yalvarırdılar. Ona toxunanların hamısı sağalırdı.

# 7

### *İnsanı murdar edən nədir? (Mat. 15:1-20)*

1 Fariseylər və Yerusəlimdən gələn bəzi
ilahiyyatçılar İsanın yanına yığıldı. 2 Onlar gördülər
ki, İsanın şagirdlərindən bəzisi murdar əllərlə, yəni

†† **6:48** Gecənin dördüncü növbəsi – hazırkı vaxtla səhər saat üç ilə altı arası.

əllərini yumamış çörək yeyir.* 3 Fariseylər və
bütün Yəhudilər ağsaqqallardan qalan adət-ənənəyə
əməl edərək əllərini yaxşı-yaxşı yumadan yemək
yeməzlər. 4 Onlar bazardan gələndə yuyunmadan
heç nə yeməzlər. Həmçinin bir sıra başqa adət-
ənənələrə də əməl edərlər. Belə ki onlar kasaları,
dolçaları, tunc qazanları və yataqları† yuyub
paklayarlar. 5 Fariseylər və ilahiyyatçılar İsadan
soruşdular: «Nə üçün şagirdlərin ağsaqqallardan
qalan adət-ənənəyə görə yaşamayaraq murdar
əllərlə çörək yeyirlər?» 6 *İsa onlara dedi: «Yeşaya
peyğəmbər siz ikiüzlülər üçün nə yaxşı söyləyib!
Yazıldığı kimi:
“Bu xalq dodaqları ilə Mənə hörmət edir,
Amma qəlbləri Məndən uzaqdır.
7 Boş yerə Mənə səcdə edirlər,
İnsan əmrlərindən çıxardıqları təlimləri öyrədirlər”.
8 Siz Allahın əmrini atıb insan adət-ənənəsini
tutursunuz».‡ 9 Sonra İsa onlara dedi: «Öz
adət-ənənənizi bərqərar etmək§ üçün Allahın
əmrini kənara atmağı necə də yaxşı bacarırsınız!
10 *Çünki Musa belə əmr etdi: “Ata-anana
hörmət et” və “Atasını yaxud anasını söyən
adam öldürülməlidir”. 11 Sizsə deyirsiniz: “Bir
adam atasına yaxud anasına ‹məndən umduğun
yardım qurban oldu›, yəni ‹Allaha həsr olundu›

* **7:2** Yeyirlər – bəzi əlyazmalarda yeyirlər. Onlara irad tutdular. † **7:4** Dolçaları, mis qazanları və yataqları – bəzi əlyazmalarda dolçaları və mis qazanları. * **7:6** Yeş. 29:13 ‡ **7:8** Tutursunuz – bəzi əlyazmalarda tutursunuz. Dolçaları və kasaları yuyub paklayır və buna bənzər çox işlər görürsünüz. § **7:9** Bərqərar etmək – bəzi əlyazmalarda saxlamaq. * **7:10** Çıx. 20:12; 21:17; Lev. 20:9; Qanun. 5:16

desə”, 12 onda həmin adama izin vermirsiniz
ki, ata-anasına yardım etsin. 13 Bununla da
siz nəsildən-nəslə ötürdüyünüz adət-ənənənizlə
Allahın kəlamını heç edirsiniz. Axı buna bənzər
çox işlər görürsünüz».

14 İsa yenə camaatı yanına çağırıb onlara
dedi: «Hamınız Mənə qulaq asın və dərk edin.
15 Kənardan insanın daxilinə girən şey insanı
murdar edə bilməz. Amma insanı murdar edən
şeylər daxilindən çıxanlardır». 16 **

17 İsa camaatdan ayrılıb evə gələndə şagirdləri bu
məsəl barəsində Ondan soruşdular. 18 İsa onlara
cavab verdi: «Siz də hələ dərk etməmisiniz? Başa
düşmürsünüz ki, kənardan insanın daxilinə girən
şey insanı murdar edə bilməz? 19 Çünki daxil olan
şeylər onun ürəyinə deyil, qarnına gedir və ifraz
olunur». İsa bununla bütün yeməklərin təmiz
olduğunu bəyan etdi. 20 O, sözünə davam etdi:
«İnsanı murdar edən insandan çıxandır. 21 Çünki
insanların daxilindən, ürəyindən pis fikirlər,
cinsi əxlaqsızlıq, oğurluq, qatillik, 22 zinakarlıq,
tamahkarlıq, şər əməllər, hiylə, pozğunluq, paxıllıq,
küfr, lovğalıq və ağılsızlıq çıxar. 23 Bütün bu pis işlər
insan daxilindən çıxıb onu murdar edir».

### *Finikiyalı qadının imanı (Mat. 15:21-28)*

24 İsa oradan ayrılıb Sur bölgəsinə†† getdi. O bir
evə girdi və istəmədi ki, harada olduğunu bilən

---

** **7:16** Çıxanlardır – bəzi əlyazmalarda çıxanlardır. 16 Eşitməyə qulağı olan eşitsin! †† **7:24** Sur bölgəsinə – bəzi əlyazmalarda Sur və Sidon bölgələrinə (Mat. 15:21).

olsun. Amma bunu gizlədə bilmədi. 25 Bir qadının
azyaşlı qızı natəmiz ruha tutulmuşdu. Qadın İsa
haqqında xəbər tutan kimi gəlib Onun ayaqlarına
düşdü. 26 Bu qadın Suriya Finikiyasında doğulmuş
bir Yunan idi. O, İsaya yalvardı ki, qızından cini
çıxartsın. 27 İsa ona dedi: «Qoy əvvəl uşaqlar doy-
sun, çünki uşaqların çörəyini götürüb itlərə atmaq
düzgün olmaz». 28 Qadınsa Ona cavab verdi: «Ya
Rəbb, axı‡‡ itlər də uşaqların süfrə altına tökdüyü
qırıntılardan yeyir». 29 İsa qadına dedi: «Get, sənin
bu sözünə görə cin qızını tərk etdi». 30 Qadın evinə
gələndə gördü ki, qızı yatağında uzanıb və cin on-
dan çıxıb.

### *Kar və pəltək bir adamın sağalması*

31 İsa yenə Sur bölgəsindən çıxdı, Sidonu keçdi
və Dekapolis bölgəsindən keçərək Qalileya gölünə
çatdı. 32 Bir kar və pəltək adamı İsanın yanına
gətirdilər və yalvardılar ki, əlini onun üzərinə
qoysun. 33 İsa həmin adamı camaatdan ayırıb
başqa bir yerə apardı və barmaqlarını bu adamın
qulaqlarına qoydu, tüpürüb onun dilinə toxundu.
34 Göyə baxdı, ah çəkərək ona dedi: «Effata!», yəni
«Açıl!» 35 O anda bu adamın həm qulaqları açıldı,
həm də dilinin bağlılığı düşdü və o aydın danışmağa
başladı. 36 İsa bunu görənlərə qadağan etdi ki,
bu barədə heç kimə heç nə deməsinlər. Lakin
nə qədər çox qadağan etsə də, o qədər çox xəbər
yaydılar. 37 Hamı hədsiz təəccüblənərək dedi: «Hər

‡‡ **7:28** Ya Rəbb, axı – bəzi əlyazmalarda Haqlısan, ya Rəbb! Amma (Mat. 15:27).

işin öhdəsindən yaxşı gəlir: həm karların qulağını,
həm də lalların dilini açır».

# 8

### *İsa dörd min nəfəri doydurur*
### *(Mat. 15:32-39)*

1 O günlər yenə böyük izdiham toplaşdı. On-
ların yeməkləri olmadığı üçün İsa şagirdləri yanına
çağırıb dedi: 2 «Bu camaata yazığım gəlir, çünki
üç gündür ki, yanımdadırlar və yeməyə heç nələri
yoxdur. 3 Əgər onları evlərinə ac yola salsam,
yolda taqətdən düşərlər. Onların bəzisi uzaqdan
gəlib». 4 Şagirdləri Ona cavab verdilər: «Kimsə
bu çöllükdə haradan çörək tapa bilər ki, bu qədər
insanı doydursun?» 5 İsa onlardan soruşdu: «Neçə
çörəyiniz var?» Onlar dedilər: «Yeddi». 6 Onda İsa
camaata əmr etdi ki, yerə otursunlar. Yeddi çörəyi
götürdü və şükür edərək bölüb paylamaq üçün
şagirdlərinə verdi. Şagirdlər də camaata payladı.
7 Onların bir neçə kiçik balığı da var idi və İsa şükür
duası edəndən sonra bunları da paylamağı əmr
etdi. 8 Camaat yeyib-doydu. Artıq qalan hissələri
yığdılar, yeddi səbət doldu. 9 Orada dörd minə yaxın
adam var idi. İsa onları yola saldı. 10 O, şagirdləri ilə
birlikdə dərhal qayığa minib Dalmanuta bölgəsinə
getdi.

### *Fariseylərin və Hirodun mayası*
### *(Mat. 12:38-39; 16:1-12)*

11 *Fariseylər İsanın yanına gəlib Onunla
mübahisə etməyə başladılar. Onu sınamaq üçün

---

* **8:11** Luka 11:16

istədilər ki, göydən gələn bir əlamət göstərsin.
12 *O, ürəyində dərin bir ah çəkib dedi: «Niyə bu
nəsil əlamət axtarır? Sizə doğrusunu deyirəm: bu
nəslə heç bir əlamət verilməyəcək». 13 Sonra onları
tərk edib yenə qayığa mindi və o biri sahilə tərəf
üzdü.
14 Şagirdləri çörək götürməyi yaddan
çıxarmışdılar. Qayıqda onların yalnız bir dənə
çörəyi var idi. 15 *İsa onlara xəbərdarlıq
edərək dedi: «Ehtiyatlı olun, fariseylərin
mayasından və Hirodun mayasından özünüzü
gözləyin». 16 Şagirdlər isə öz aralarında danışıb
deyirdilər: «Bunu çörəyimiz olmadığı üçün
deyir». 17 İsa bunu bilərək onlara dedi: «Nə
üçün çörəyinizin yoxluğundan danışırsınız?
Hələ dərk etmirsinizmi, başa düşmürsünüzmü?
Niyə ürəyiniz inadkardır? 18 *Gözləriniz ola-
ola görmürsünüzmü? Qulaqlarınız ola-ola
eşitmirsinizmi? Məgər yadınızdan çıxıb? 19 Mən beş
çörəyi beş min nəfərin arasında bölüb paylayanda
yemək tikələrindən neçə zənbil doldurdunuz?»
Onlar dedilər: «On iki». 20 «Yeddi çörəyi dörd
min nəfərin arasında bölüb paylayanda çörək
tikələrindən neçə səbət doldurdunuz?» Onlar
dedilər: «Yeddi». 21 İsa onlara dedi: «Hələ başa
düşməmisinizmi?»

## *Bet-Saydada olan korun şəfa tapması*

22 Onlar Bet-Saydaya gəldilər. Bəzi adamlar
İsanın yanına bir kor adam gətirdilər və İsa bu

* **8:12** Luka 11:29 * **8:15** Luka 12:1 * **8:18** Yeş. 6:9-10; Yer. 5:21; Yez. 12:2; Mark 4:12

adama toxunsun deyə Ona yalvardılar. 23 İsa korun
əlindən tutub kənddən kənara apardı. Sonra onun
gözlərinə tüpürüb əllərini onun üzərinə qoydu və
soruşdu: «Bir şey görürsənmi?» 24 Kor yuxarı baxıb
dedi: «Adamlar görürəm, ağaclara oxşayır, amma
yeriyirlər». 25 Onda İsa əllərini yenidən bu adamın
gözlərinin üstünə qoydu. Kor adam gözlərini açıb
baxdı. O şəfa tapdı və hər şeyi aydın görməyə
başladı. 26 İsa onu evinə göndərdi və dedi: «Kəndə
belə, girmə».*

### *Peterin Məsihi tanıması (Mat. 16:13-20; Luka 9:18-21)*

27 İsa şagirdləri ilə birgə Filip Qeysəriyyəsinin
kəndlərinə tərəf yollandı. Yolda şagirdlərindən
soruşdu: «Adamların dediyinə görə Mən kiməm?»
28 *Şagirdləri Ona belə cavab verdilər: «Bəziləri
Vəftizçi Yəhya, başqaları İlyas, digərləri isə deyirlər
ki, peyğəmbərlərdən birisən». 29 *İsa onlardan
soruşdu: «Bəs siz nə deyirsiniz? Sizcə Mən
kiməm?» Peter Ona cavab verdi: «Sən Məsihsən».
30 İsa şagirdlərinə qadağan etdi ki, Onun haqqında
heç kəsə danışmasınlar.

### *İsa ölüb-diriləcəyi barədə əvvəlcədən xəbər verir (Mat. 16:21-28; Luka 9:22-27)*

31 İsa onlara təlim öyrətməyə başladı: «Bəşər Oğlu
çox əzab çəkməli, ağsaqqallar, başçı kahinlər və
ilahiyyatçılar tərəfindən rədd edilməli, öldürülməli
və üç gündən sonra dirilməlidir». 32 İsa bu sözləri

---

* **8:26** Girmə – bəzi əlyazmalarda girmə və orada heç kimə bir söz demə. * **8:28** Mark 6:14-15; Luka 9:7-8 * **8:29** Yəh. 6:68-69

aydın deyirdi. Peter isə Onu bir kənara çəkib etiraz
etməyə başladı. 33 Amma İsa dönüb şagirdlərinə
baxdı və Peterə etiraz etdi: «Çəkil qarşımdan,
Şeytan! Sən Allahın işləri haqqında deyil, insan
əməlləri barəsində fikirləşirsən».

34 *İsa şagirdləri ilə birgə camaatı da yanına
çağırıb belə dedi: «Əgər bir kəs Mənim ardımca
gəlmək istəyirsə, özündən imtina etsin və çarmıxını
götürüb ardımca gəlsin. 35 *Kim canını xilas etmək
istəyirsə, onu itirəcək, amma kim Mənimlə Müjdə
uğrunda canını itirirsə, onu xilas edəcək. 36 İnsana
bütün dünyanı qazanıb canını itirməyinin nə xeyri
var? 37 İnsan öz canının əvəzinə nə verə bilər?
38 Bu vəfasız və günahkar nəsil arasında kim Məndən
və Mənim sözlərimdən utanarsa, Bəşər Oğlu da
Atasının izzəti içində müqəddəs mələklərlə birgə
gələndə o adamdan utanacaq».

# 9

1 İsa onlara dedi: «Sizə doğrusunu deyirəm:
burada duranlardan bəzisi Allahın Padşahlığının
qüdrətli gəlişini görmədən ölməyəcək».

### *İsanın görünüşü dəyişir*
### *(Mat. 17:1-13; Luka 9:28-36)*

2 *Altı gündən sonra İsa Özü ilə yalnız Peter,
Yaqub və Yəhyanı götürüb hündür bir dağa çıxdı.
Onların qarşısında görünüşü dəyişdi. 3 Onun libası
göz qamaşdırıcı ağ rəng aldı. Yer üzündə heç bir
paltar təmizləyən onu belə ağ edə bilməzdi. 4 O an

* **8:34** Mat. 10:38; Luka 14:27 * **8:35** Mat. 10:39; Luka 17:33; Yəh. 12:25 * **9:2** 2Pet. 1:17-18

İlyas və Musa onlara göründü. Onlar İsa ilə söhbət
edirdi. 5 Peter sözə başlayıb İsaya dedi: «Rabbi! Nə
yaxşı ki biz buradayıq. Gəl üç çardaq quraq, biri
Sənin, biri Musa, biri də İlyas üçün». 6 O bilmirdi
ki, nə desin, çünki onları dəhşət bürümüşdü. 7 *Bu
zaman bir bulud onların üzərinə kölgə saldı. Bu-
luddan bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur,
Ona qulaq asın!» 8 Birdən ətrafa baxanda artıq
yanlarında İsadan başqa kimsəni görmədilər.

9 Dağdan enərkən İsa şagirdlərinə qadağan etdi
ki, Bəşər Oğlu ölülər arasından dirilənə qədər
orada gördüklərini heç kimə deməsinlər. 10 Onlar
da bu sözü ürəklərində saxladılar, amma bir-
birlərindən soruşdular ki, ölülər arasından dirilmək
nə deməkdir. 11 *Ondan soruşdular: «Elə isə niyə
ilahiyyatçılar deyirlər ki, əvvəlcə İlyas gəlməlidir?»
12 İsa onlara belə dedi: «Düzdür, əvvəlcə İlyas
gəlib hər şeyi yoluna qoymalıdır. Bəs Bəşər Oğlu
barəsində nə üçün yazılıb ki, O, çox əzab çəkib
alçaldılmalıdır? 13 Lakin sizə deyirəm: artıq İlyas
gəldi və haqqında yazıldığı kimi, nə istədilərsə,
onun başına gətirdilər».

### *Oğlandan cin çıxarılır*
### *(Mat. 17:14-20; Luka 9:37-43)*

14 Onlar şagirdlərin yanına gələndə böyük bir
izdihamın toplaşdığını və bir neçə ilahiyyatçının
şagirdlərlə mübahisə etdiyini gördülər. 15 İsanı görən
kimi bütün izdihamı heyrət bürüdü və qarşısına
qaçıb Onu salamladılar. 16 İsa adamlardan soruşdu:

---

* **9:7** Mat. 3:17; Mark 1:11; Luka 3:21-22 * **9:11** Mal. 4:5; Mat. 11:14

«Onlarla nə barədə mübahisə edirsiniz?» 17 Camaat
arasından biri Ona cavab verdi: «Müəllim! Mən
Sənin yanına lallıq ruhuna tutulmuş oğlumu
gətirmişəm. 18 Ruh onu harada tutursa, yerə çırpır,
uşağın ağzı köpüklənir, dişlərini qıcıdır və qıc olur.
Şagirdlərindən xahiş etdim ki, bu ruhu qovsunlar,
amma bacarmadılar». 19 İsa da cavabında onlara
dedi: «Ey imansız nəsil! Nə vaxta qədər sizinlə
qalacağam? Nə vaxta qədər sizə dözəcəyəm? Uşağı
yanıma gətirin!» 20 Uşağı Onun yanına gətirdilər və
İsanı görən kimi ruh dərhal uşağı sarsıtdı. Uşaq yerə
yıxılıb yuvarlanırdı və ağzından köpük daşırdı. 21 İsa
onun atasından soruşdu: «Bu uşaq nə vaxtdan belə
hala düşüb?» Uşağın atası dedi: «Körpəlikdən bəri.
22 Bu ruh onu həlak etmək üçün dəfələrlə oda və
suya atıb. Amma bacarırsansa, bizə kömək et, bizə
rəhmin gəlsin!» 23 İsa ona dedi: «“Bacarırsansa”
nə sözdür?* İman edən üçün hər şey mümkündür!»
24 Uşağın atası dərhal fəryad qopararaq dedi:
«İman edirəm,† kömək et ki, imansızlığım yox
olsun!» 25 İsa camaatın qaçıb gəldiyini görəndə
natəmiz ruha qadağan edib dedi: «Ey lallıq və
karlıq ruhu, Mən sənə əmr edirəm, bu uşağın
içindən çıx və bir daha ora girmə!» 26 Ruh çığırıb
uşağı sarsıdaraq çıxdı. Uşaq ölü kimi düşdü və çoxları
dedi: «O öldü!» 27 Lakin İsa uşağın əlindən tutub
qaldırdı və o, ayağa qalxdı.

28 İsa evə girəndən sonra şagirdləri təklikdə On-
dan soruşdular: «Bəs nə üçün biz o ruhu qova

---

* **9:23** “Bacarırsansa” nə sözdür? – bəzi əlyazmalarda İman edə bilirsənsə. † **9:24** Dedi: «İman edirəm – bəzi əlyazmalarda göz yaşları içində dedi: «Ya Rəbb, iman edirəm.

bilmədik?» 29 İsa onlara cavab verdi: «Bu cür
ruhlar yalnız dua ilə‡ çıxa bilər».

### *İsa ölüb-diriləcəyi barədə yenə xəbər verir (Mat. 17:22-23; Luka 9:43-45)*

30 Onlar oranı tərk edib Qalileyadan keçirdilər.
İsa istəmirdi ki, kimsə bundan xəbər tutsun.
31 Çünki şagirdlərinə təlim öyrədirdi. Onlara belə
deyirdi: «Bəşər Oğlu insan əllərinə təslim ediləcək
və Onu öldürəcəklər. Öldürüldükdən üç gün sonra
O diriləcək». 32 Lakin şagirdlər bu sözü başa
düşmədilər və Ondan soruşmaqdan da qorxurdular.

### *Ən böyük kimdir? (Mat. 18:1-9; Luka 9:46-50; 17:1-2)*

33 Onlar Kefernahuma gəldilər. İsa evdə olanda
şagirdlərdən soruşdu: «Yol boyu nə barədə mübahisə
edirdiniz?» 34 *Heç kim dillənmədi, çünki yol
boyu öz aralarında kimin ən böyük olması barədə
mübahisə etmişdilər. 35 *İsa oturub On İki şagirdi
yanına çağıraraq dedi: «Əgər bir kəs birinci olmaq
istəyirsə, hamıdan axırıncı və hamının xidmətçisi
olsun». 36 *O, balaca bir uşağı götürüb şagirdlərin
arasına qoydu və sonra uşağı qucağına alıb onlara
dedi: 37 «Kim Mənim adımla belə uşaqlardan birini
qəbul edərsə, Məni qəbul edər. Kim Məni qəbul
edərsə, Məni yox, Məni Göndərəni qəbul edər».

---

‡ **9:29** Dua ilə – bəzi əlyazmalarda dua və orucla. * **9:34** Luka 22:24 * **9:35** Mat. 20:26-27; 23:11; Mark 10:43-44; Luka 22:25-26 * **9:36** Mat. 10:40; Luka 10:16; Yəh. 13:20

38 Yəhya Ona dedi: «Müəllim, biz Sənin adınla§
cinləri qovan bir nəfəri gördük, amma bizim
ardımızca gəlmədiyinə görə ona mane olduq». 39 İsa
onlara dedi: «Ona mane olmayın! Elə bir adam
yoxdur ki, Mənim adımla möcüzə göstərsin və
sonra Məni pisləsin. 40 *Çünki əleyhimizə olmayan
bizim tərəfimizdədir. 41 *Məsihə məxsus olduğunuz
üçün kim sizə bir kasa su içirdərsə, sizə doğrusunu
deyirəm: mükafatsız qalmayacaq.

42 Kim Mənə iman edən bu kiçiklərdən birini
pis yola çəkərsə, öz boynuna böyük bir dəyirman
daşı asıb dənizə atılmaq onun üçün daha yaxşı
olar. 43 *Əgər əlin səni pis yola çəkərsə, onu kəs.
Sənin əbədi həyata şikəst olaraq daxil olmağın iki
əllə cəhənnəmə, sönməz oda düşməyindən yaxşıdır.
44 ** 45 Əgər ayağın səni pis yola çəkərsə, onu
kəs. Sənin əbədi həyata topal olaraq daxil olmağın iki ayaqla cəhənnəmə atılmağından yaxşıdır.
46 †† 47 *Əgər gözün səni pis yola çəkərsə, onu
çıxart. Sənin tək gözlə Allahın Padşahlığına daxil
olmağın iki gözlə cəhənnəmə atılmağından yaxşıdır.
48 *Oradakıları gəmirən qurd ölmür və oranın ya-

§ **9:38** Sənin adınla – bəzi əlyazmalarda ardımızca gəlmədən Sənin adınla. * **9:40** Mat. 12:30; Luka 11:23 * **9:41** Mat. 10:42 * **9:43** Mat. 5:30 ** **9:44** Yaxşıdır – bəzi əlyazmalarda yaxşıdır. 44 Oradakıları gəmirən qurd ölmür və oranın yanar odu sönmür (Mark 9:48). †† **9:46** Cəhənnəmə atılmağından yaxşıdır – bəzi əlyazmalarda cəhənnəmə, sönməz oda atılmağından yaxşıdır. 46 Oradakıları gəmirən qurd ölmür və oranın yanar odu sönmür (Mark 9:43,48). * **9:47** Mat. 5:29 * **9:48** Yeş. 66:24

nar odu sönmür. 49 *Çünki hamı odla duzlanacaq.‡‡
50 *Duz yaxşı şeydir, amma əgər duz dadsız olarsa, ona nə ilə dad vermək olar? Qoy sizdə duz və aranızda da sülh olsun».

# 10

### *Boşanma haqqında (Mat. 19:1-12)*

1 İsa oradan ayrılıb Yəhudeya bölgəsinə və İordan çayının o biri tayına getdi. Yenə çoxlu adam Onun başına yığıldı və O, adətinə görə yenidən təlim öyrətməyə başladı.

2 Bəzi fariseylər İsanın yanına gəlib Onu sınamaq üçün belə bir sual verdilər: «Kişinin öz arvadını
boşamağa icazəsi varmı?» 3 İsa onlara cavab verdi:
«Musa sizə nə əmr etdi?» 4 *Onlar dedi: «Musa kişiyə talaq kağızını yazıb arvadını boşamağa icazə
verdi». 5 İsa da onlara belə dedi: «O bu əmri
ürəyiniz inadkar olduğuna görə yazdı. 6 *Allah yaradılışın başlanğıcından “onları kişi və qadın
olaraq yaratdı”. 7 *“Buna görə də kişi ata-anasını
tərk edib arvadına qovuşacaq 8 və ikisi bir bədən
olacaq”. Artıq onlar iki deyil, bir bədəndir. 9 Buna görə də qoy Allahın birləşdirdiyini insan ayırmasın».

10 Onlar evdə olarkən şagirdlər İsaya bu barədə
yenə sual verdilər. 11 *İsa onlara belə cavab verdi: «Arvadını boşayıb başqası ilə evlənən kəs arvadına

---

* **9:49** Lev. 2:13 ‡‡ **9:49** Duzlanacaq – bəzi əlyazmalarda duzlanacaq. Hər qurban da duzlanacaq. * **9:50** Mat. 5:13; Luka 14:34-35 * **10:4** Qanun. 24:1-4; Mat. 5:31 * **10:6** Yar. 1:27; 5:2 * **10:7** Yar. 2:24 * **10:11** Mat. 5:32; Luka 16:18; 1Kor. 7:10-11

münasibətdə zina edir. 12 Ərindən boşanıb başqasına
gedən qadın da zina edir».

### *İsa uşaqlara xeyir-dua verir (Mat. 19:13-15; Luka 18:15-17)*

13 Adamlar uşaqları İsanın yanına gətirirdilər ki,
İsa onlara toxunsun. Şagirdlərsə onlara qadağan
etdilər. 14 Bunu görən İsa acıqlanaraq onlara dedi:
«Uşaqları buraxın, qoy Mənim yanıma gəlsinlər!
Onlara mane olmayın! Çünki Allahın Padşahlığı
belələrinə məxsusdur. 15 *Sizə doğrusunu deyirəm:
kim Allahın Padşahlığını bir uşaq kimi qəbul
etməsə, oraya əsla daxil ola bilməz». 16 Sonra
uşaqları qucaqlayıb əllərini onların üzərinə qoydu
və xeyir-dua verdi.

### *Var-dövlət və Allahın Padşahlığı (Mat. 19:16-30; Luka 18:18-30)*

17 İsa yola çıxarkən bir nəfər qaça-qaça Onun
yanına gəldi. Onun qarşısında diz çökərək soruşdu:
«Ey yaxşı Müəllim, mən nə etməliyəm ki, əbədi
həyatı irs olaraq alım?» 18 İsa ona dedi: «Mənə
niyə yaxşı deyirsən? Tək Allahdan başqa yaxşısı
yoxdur. 19 *Onun əmrlərini bilirsən: “Qətl etmə.
Zina etmə. Oğurluq etmə. Yalandan şahidlik
etmə. Kimisə aldatma. Ata-anana hörmət et”».
20 Bu adamsa İsaya dedi: «Müəllim, bunların
hamısına gəncliyimdən bəri riayət edirəm». 21 İsa
ona məhəbbətlə baxaraq dedi: «Sənin bir şeyin
çatışmır: get nəyin varsa, satıb yoxsullara payla.

* **10:15** Mat. 18:2-3 * **10:19** Çıx. 20:12-16; Qanun. 5:16-20

Onda göydə xəzinən olacaq. Sonra qayıt,* Mənim
ardımca gəl». 22 Bunu eşidən adam pərt oldu.
Kədərlənib getdi, çünki var-dövləti çox idi.

23 İsa ətrafındakılara baxdı və şagirdlərinə dedi:
«Var-dövləti olanların Allahın Padşahlığına daxil
olması nə qədər çətindir!» 24 Onun sözlərindən
şagirdləri heyrət bürüdü. Amma İsa yenə onlara
cavab verib dedi: «Övladlarım, Allahın Padşahlığına
daxil olmaq† nə qədər çətindir! 25 Dəvənin
iynə gözündən keçməsi varlı adamın Allahın
Padşahlığına daxil olmasından asandır». 26 Onlar
daha da təəccüblənərək bir-birlərinə dedilər: «Elə
isə, kim xilas ola bilər?» 27 İsa onlara baxıb dedi:
«Bu, insanlar üçün qeyri-mümkündür, amma Allah
üçün yox. Çünki Allah üçün hər şey mümkündür».

28 Peter Ona belə deməyə başladı: «Bax biz hər
şeyi qoyub Sənin ardınca gəlmişik». 29 İsa cavab
verdi: «Sizə doğrusunu deyirəm: Mənimlə Müjdə
uğrunda ya evini ya qardaşlarını ya bacılarını ya
anasını ya atasını ya uşaqlarını və yaxud tarlalarını
atan elə bir kəs yoxdur ki, 30 indi bu dövrdə çəkdiyi
əzab-əziyyətlə birgə bundan yüz qat artıq evlər,
qardaşlar, bacılar, analar, uşaqlar, tarlalar, gələcək
dövrdə isə əbədi həyat almasın. 31 *Amma birinci
olanların çoxu axırıncı, axırıncı olanlarsa birinci
olacaq».

* **10:21** Qayıt – bəzi əlyazmalarda qayıt, çarmıxını götür (Mark 8:34). † **10:24** Allahın Padşahlığına daxil olmaq – bəzi əlyazmalarda var-dövlətinə bel bağlayanlar üçün Allahın Padşahlığına daxil olmaq. * **10:31** Mat. 20:16; Luka 13:30

### *İsa ölüb-diriləcəyi barədə üçüncü dəfə xəbər verir (Mat. 20:17-19; Luka 18:31-34)*

32 Onlar yola çıxıb Yerusəlimə gedirdilər. İsa
onların qabağında gedirdi. Şagirdləri isə heyrət
bürümüşdü, Onun ardınca gələnlər qorxu içində
idi. İsa On İki şagirdi yenə bir tərəfə çəkib başına
gələcək hadisələr barədə danışmağa başladı: 33 «Bax
Yerusəlimə qalxırıq, Bəşər Oğlu başçı kahinlərə
və ilahiyyatçılara təslim olunacaq. Onu ölümə
məhkum edib başqa millətlərə təslim edəcəklər.
34 Onlar Bəşər Oğlunu ələ salacaq, Ona tüpürəcək
və qamçılayıb öldürəcəklər. O, üç gündən sonra
diriləcək».

### *Kim üstündür? (Mat. 20:20-28)*

35 Zavdayın oğulları Yaqub və Yəhya Ona
yaxınlaşıb dedilər: «Müəllim, istəyirik ki,
dilədiyimizi bizim üçün edəsən». 36 İsa onlardan
soruşdu: «Nə istəyirsiniz, sizin üçün edim?»
37 Onlar İsaya dedilər: «Sən izzətlənəndə qoy
birimiz sağında, o birimiz solunda otursun».
38 *Amma İsa onlara dedi: «Nə dilədiyinizi özünüz
də bilmirsiniz. Mənim içdiyim kasadan siz də
içə bilərsinizmi? Mənim vəftiz olduğum kimi
siz də vəftiz ola bilərsinizmi?» 39 Onlar dedilər:
«Bilərik». İsa onlara dedi: «Mənim içdiyim kasadan
siz də içəcəksiniz, Mənim vəftiz olduğum kimi siz
də vəftiz olacaqsınız. 40 Amma sağımda və yaxud
solumda oturmağa izin vermək Məndən asılı deyil.
Ora kimlər üçün hazırlanıbsa, onlara veriləcək».

---

* **10:38** Luka 12:50

41 Bunu eşidən on şagirdin Yaqubla Yəhyaya
acığı tutmağa başladı. 42 *Onda İsa şagirdləri
yanına çağırıb dedi: «Bilirsiniz ki, millətlərin rəhbəri
sayılanlar onların üzərində hökmranlıq, əyanları da
onlara ağalıq edir. 43 Sizin aranızda isə qoy belə ol-
masın. Sizlərdən böyük olmaq istəyən xidmətçiniz
olsun. 44 Aranızda birinci olmaq istəyən hamının
qulu olsun. 45 Çünki Bəşər Oğlu gəlmədi ki, Ona
xidmət etsinlər, gəldi ki, Özü xidmət etsin və
çoxlarını satın almaq üçün Öz canını fidyə versin».

### *Kor Bartimayın gözləri açılır*
### *(Mat. 20:29-34; Luka 18:35-43)*

46 Sonra onlar Yerixoya gəldilər. İsa şagirdləri ilə
birgə böyük izdihamla Yerixodan çıxanda Timay
oğlu Bartimay adlı bir kor dilənçi yol kənarında
oturmuşdu. 47 Nazaretli İsanın orada olduğunu
eşitdikdə «Ey Davud Oğlu İsa! Mənə rəhm elə!» deyə
bağırmağa başladı. 48 Çox adamsa ona qadağan
edib susdurmaq istədisə də, o «Ey Davud Oğlu!
Mənə rəhm elə!» deyə daha ucadan bağırdı.
49 İsa dayanıb dedi: «Onu çağırın». Onlar bu kor
adamı çağıraraq dedilər: «Cəsarətli ol, qalx, O
səni çağırır». 50 O, üst paltarını üstündən atdı və
yerindən sıçrayaraq İsanın yanına gəldi. 51 İsa ondan
soruşdu: «Nə istəyirsən, sənin üçün edim?» Kor
adam Ona dedi: «Rabbuni,‡ gözlərim açılsın». 52 İsa
ona dedi: «Get, imanın səni xilas etdi». Həmin an
bu adamın gözləri açıldı və o da İsanın ardınca getdi.

---

* **10:42** Mat. 23:11; Mark 9:35; Luka 22:25-26 ‡ **10:51** Rabbuni – arami dilində Müəllimim.

# 11

*İsanın Yerusəlimə girməsi*
*(Mat. 21:1-11; Luka 19:28-40; Yəh. 12:12-19)*

1 Onlar Yerusəlimə yaxınlaşarkən Zeytun dağının
yamacındakı Bet-Faqe ilə Bet-Anyaya gəldikləri za-
man İsa şagirdlərindən ikisini göndərərək 2 onlara
dedi: «Qarşınızdakı kəndə gedin. Oraya girən
kimi hələ heç kəsin minmədiyi, bağlanmış bir sıpa
tapacaqsınız. Onu açıb buraya gətirin. 3 Kim
sizdən soruşsa: "Bunu nə üçün edirsiniz?", ona
"bu sıpa Rəbbə lazımdır, tezliklə yerinə qaytaracaq"
deyin».

4 Onlar getdilər. Küçədə bir evin qapısının
kənarına bağlanmış sıpa tapıb onu açdılar. 5 Orada
duran bəzi adamlar onlardan soruşdu: «Nə
edirsiniz? Bu sıpanı nə üçün açırsınız?» 6 Şagirdlər
İsanın dediklərini onlara təkrarlayanda o adamlar
şagirdlərə imkan verdilər. 7 Onlar sıpanı İsanın
yanına gətirdilər və öz paltarlarını sıpanın
üstünə sərdilər. İsa sıpanın belinə mindi. 8 Bir
çoxu paltarlarını, bəzisi də ətrafdakı ağaclardan
kəsdikləri budaqları yola döşədi. 9 *İsanın önündə
gedənlər və ardınca gələnlər belə nida edirdilər:

«Hosanna!*
Rəbbin ismi ilə Gələnə alqış olsun!
10 Atamız Davudun gələn Padşahlığı xeyir-dualı
olsun!
Ən ucalarda hosanna!»

---

* **11:9** Zəb. 118:25-26 * **11:9** Hosanna – ibrani dilində xilas et. Nida kimi işlənir.

11 İsa Yerusəlimə daxil olub məbədə girdi. O hər
şeyə nəzər saldı. Sonra On İki şagirdlə bərabər Bet-
Anyaya getdi, çünki artıq gec idi.

### *Barsız əncir ağacı*
### *(Mat. 21:18-19; Luka 13:6-9)*

12 Ertəsi gün onlar Bet-Anyadan çıxdılar. O za-
man İsa acmışdı. 13 Uzaqda yarpaqlı bir əncir
ağacı gördü və ağaca yaxınlaşdı ki, bəlkə onda
meyvə tapar. Amma onun yanına gələndə ağacda
yarpaqdan başqa bir şey tapmadı, çünki əncirin
bar mövsümü deyildi. 14 Onda İsa ağaca dedi: «Qoy
səndən bir daha heç kəs meyvə yeməsin!» Bunu
şagirdləri də eşitdi.

### *İsa satıcıları məbəddən qovur*
### *(Mat. 21:12-17; Luka 19:45-48; Yəh. 2:13-22)*

15 Onlar Yerusəlimə gəldilər. İsa məbədə
girib orada alver edənləri qovmağa başladı.
Sərrafların masalarını və göyərçin satanların
kürsülərini çevirdi, 16 heç kimi yük daşıyaraq məbəd
həyətlərindən keçməyə qoymadı. 17 *Onlara təlim
öyrədərək dedi: «Məgər yazılmayıb ki,
“Mənim evim bütün xalqlar üçün
Dua evi adlandırılacaq”?
Amma siz onu “quldur yuvasına” çevirmisiniz!»
18 Bunu eşidən başçı kahinlər və ilahiyyatçılar İsanı
öldürmək üçün yol axtarırdılar. Çünki bütün xalq
Onun təliminə təəccübləndiyi üçün Ondan qorxur-
dular. 19 Axşam olanda İsa və şagirdləri şəhərdən
kənara çıxdı.

---

* **11:17** Yeş. 56:7; Yer. 7:11

### *İmanın gücü*
### *(Mat. 21:20-22)*

20 Səhər erkən onlar əncir ağacının yanından
keçəndə gördülər ki, ağac kökündən quruyub.
21 Hadisəni xatırlayan Peter İsaya dedi: «Rabbi,
bax lənətlədiyin əncir ağacı quruyub». 22 İsa
cavab verib onlara dedi: «Allaha imanınız olsun.
23 *Sizə doğrusunu deyirəm: kim bu dağa "Qalx,
dənizə atıl!" deyərsə və ürəyində şübhə etmədən
dediyinin olacağına inanarsa, onun üçün ediləcək.
24 Buna görə sizə deyirəm: dua edib hər nə
diləsəniz, inanın ki, artıq almısınız† və istədiyiniz
sizin üçün ediləcək. 25 *Durub dua edəndə kimdən
narazılığınız varsa, bağışlayın ki, göylərdə olan
Atanız da təqsirlərinizi bağışlasın». 26 ‡

### *İsanın səlahiyyəti*
### *(Mat. 21:23-27; Luka 20:1-8)*

27 Onlar yenə Yerusəlimə gəldilər. İsa məbəddə
gəzən zaman başçı kahinlər, ilahiyyatçılar və
ağsaqqallar Ona yaxınlaşıb 28 dedilər: «Sən bu işləri
hansı səlahiyyətlə edirsən? Bu işləri görmək üçün
Sənə bu səlahiyyəti kim verib?» 29 İsa onlara belə
cavab verdi: «Mən də sizə bir sual verəcəyəm;
ona cavab versəniz, Mən də bunları hansı
səlahiyyətlə etdiyimi sizə deyərəm. 30 Yəhyanın
vəftizi göydən idimi, yoxsa insanlardan? Mənə
cavab verin». 31 Onlarsa aralarında müzakirə

---

* **11:23** Mat. 17:20-21; 1Kor. 13:2 † **11:24** Artıq almısınız – bəzi əlyazmalarda alırsınız. * **11:25** Mat. 6:14-15; 18:35 ‡ **11:26** Bağışlasın – bəzi əlyazmalarda bağışlasın. 26 Əgər siz bağışlamasanız, göylərdə olan Atanız da sizin təqsirlərinizi bağışlamaz (Mat. 6:15).

edərək belə dedilər: «Əgər desək “göydən”, “Bəs nə
üçün ona inanmadınız?” deyəcək. 32 Amma desək
“insanlardan”?» O zaman xalqdan qorxurdular,
çünki hamı Yəhyanı həqiqi peyğəmbər sayırdı.
33 Cavabında İsaya dedilər: «Bilmirik». İsa da onlara
dedi: «Bunları hansı səlahiyyətlə etdiyimi Mən də
sizə demirəm».

# 12

### *Pis bağbanlar məsəli (Mat. 21:33-46; Luka 20:9-19)*

1 *İsa məsəllər söyləyib onlarla danışmağa
başladı: «Bir adam üzüm bağı saldı, oranın ətrafına
çəpər çəkdi. İçində yer qazaraq üzümsıxan düzəltdi,
nəzarət qülləsi tikdi. Sonra isə bağı bağbanlara
icarəyə verərək başqa ölkəyə getdi. 2 Məhsul vaxtı
çatanda bağbanların yanına bir qul göndərdi ki,
üzüm bağının məhsulundan bir qədərini onlardan
alsın. 3 Lakin bağbanlar qulu tutub döydülər və
əliboş geri qaytardılar. 4 Bağ sahibi onların yanına
yenə başqa bir qul göndərdi. Onun da başını vurub
yardılar və biabır etdilər. 5 Başqasını göndərdi, onu
isə öldürdülər. O, çox adam göndərdi, onlardan
bəzisini döydülər, bəzisini isə öldürdülər. 6 Yanında
ancaq bir nəfər qalmışdı ki, bu da onun sevimli
oğlu idi. “Oğluma hörmət edərlər” deyərək axırda
onu onların yanına göndərdi. 7 Bağbanlarsa bir-
birlərinə dedilər: “Varis budur. Gəlin onu öldürək,
onda miras bizə qalacaq”. 8 Beləcə onu tutub
öldürdülər və bağdan kənara atdılar. 9 Beləliklə,
bağ sahibi nə edəcək? Gəlib bağbanları həlak

* **12:1** Yeş. 5:1-7

edəcək və bağı başqalarına verəcək. 10 *Məgər siz
bu Müqəddəs Yazını oxumamısınız?
“Bənnaların rədd etdiyi daş
Guşədaşı olub.
11 Bu, Rəbbin işi idi,
Gözümüzdə xariqəli bir işdir”».
12 Yəhudi rəhbərləri başa düşdülər ki, İsa bu
məsəli onlar barədə söylədi. Ona görə də İsanı tut-
maq üçün yol axtarırdılar, lakin camaatdan qorx-
dular. Beləcə Onu tərk edib getdilər.

### *Hər kəsin öz haqqı*
### *(Mat. 22:15-22; Luka 20:20-26)*

13 Sonra İsanı dediyi sözlərlə tələyə salmaq üçün
fariseylərdən və hirodçulardan bəzisini Onun
yanına göndərdilər. 14 Onlar gəlib İsaya dedilər:
«Müəllim, biz bilirik ki, Sən etibarlı adamsan və
heç kimə tərəfkeşlik etmirsən. Çünki insanlar
arasında fərq qoymursan və Allahın yolunu
həqiqətə görə öyrədirsən. Bizim üçün qeysərə
vergi verməyə icazə var ya yox? Biz vergi verək
ya yox?» 15 Onların ikiüzlülüyünü bilən İsa dedi:
«Məni niyə sınağa çəkirsiniz? Mənə bir dinar
gətirin, baxım». 16 Onlar da gətirdilər. İsa soruşdu:
«Sikkənin üstündəki bu təsvir və yazı kimindir?»
Ona dedilər: «Qeysərin». 17 İsa onlara dedi: «Elə isə,
qeysərin haqqını qeysərə, Allahın haqqını Allaha
verin». Onlar İsanın sözlərinə heyrətləndilər.

### *Dirilmə haqqında sual*
### *(Mat. 22:23-33; Luka 20:27-40)*

* **12:10** Zəb. 118:22-23

18 *Dirilmənin olmadığını iddia edən bəzi
sadukeylər İsanın yanına gəlib soruşdular:
19 «Müəllim, Musa bizim üçün belə yazmışdır:
“Əgər bir adamın qardaşı ölsə, arvadı dul qalsa,
amma övladı olmazsa, o biri qardaş bu dul arvadı
alıb ölən qardaşın nəslini davam etdirsin”. 20 Yeddi
qardaş var idi. Birincisi bir arvad aldı, amma
övladı olmadan öldü. 21 Bu arvadı ikinci qardaş
aldı, o da özündən sonra övlad qoymadan öldü,
üçüncüsü də, 22 hətta yeddincisinə qədər belə etdi,*
amma övladı olmadan öldü. Hamısından sonra
bu qadın da öldü. 23 Qiyamət günündə,† ölülər
diriləndə bu qadın onlardan hansının arvadı
olacaq? Çünki yeddi qardaşın yeddisi də bu qadını
almışdı».
24 İsa onlara belə cavab verdi: «Nə Müqəddəs
Yazıları, nə də Allahın qüdrətini bilirsiniz.
Yanılmanıza səbəb bu deyilmi? 25 İnsanlar ölülər
arasından diriləndə nə evlənir, nə də ərə gedirlər.
Ancaq səmadakı mələklər kimi olurlar. 26 *Bəs
ölülərin dirildiyinə gəlincə, Musanın kitabındakı
kolla bağlı əhvalatda Allahın necə ona “Mən
İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun
Allahıyam” dediyini oxumamısınızmı? 27 Allah
ölülərin deyil, dirilərin Allahıdır. Beləliklə, siz çox
yanılırsınız».

### *Əmrlərin ən əsası*
### *(Mat. 22:34-40; Luka 10:25-28)*

---

* **12:18** Qanun. 25:5; Həv. 23:8 * **12:22** Belə etdi – bəzi əlyazmalarda bu arvadla evləndi. † **12:23** Qiyamət günündə – hərfi tərcümədə Dirilmədə. * **12:26** Çıx. 3:6

28 İlahiyyatçılardan biri gəlib onların
mübahisələrinə qulaq asdı və İsanın onlara yaxşı
cavab verdiyini görüb Ondan soruşdu: «Əmrlərin
ən əsası hansıdır?» 29 *İsa cavab verdi: «Əmrlərin
ən əsası budur: "Dinlə, ey İsrail! Allahımız Rəbb
yeganə Rəbdir. 30 Allahın Rəbbi bütün qəlbinlə,
bütün varlığınla, bütün düşüncənlə və bütün
gücünlə sev".‡ 31 *İkincisi də budur: "Qonşunu
özün kimi sev". Bunlardan böyük əmr yoxdur».
32 *İlahiyyatçı Ona dedi: «Müəllim, Sən nə yaxşı
dedin, həqiqəti söylədin. Allah yeganədir, Ondan
başqası yoxdur. 33 Onu bütün qəlbinlə, bütün
ağlınla§ və bütün gücünlə sevmək, qonşunu da
özün kimi sevmək yandırma qurbanlarının və
başqa qurbanların hamısından daha vacibdir».
34 Dərrakəli cavab verdiyini görən İsa ona dedi:
«Sən Allahın Padşahlığından uzaq deyilsən».
Bundan sonra heç kim İsadan bir şey soruşmağa
cəsarət etmədi.

### *Məsih kimin Oğludur?*
### *(Mat. 22:41-46; Luka 20:41-44)*

35 İsa məbəddə təlim öyrədərək belə sual verdi:
«Niyə ilahiyyatçılar Məsih Davudun Oğludur
deyirlər? 36 *Davud özü Müqəddəs Ruh vasitəsilə
"Rəbb mənim Ağama dedi:
‹Mən düşmənlərini ayaqlarının altına salanadək
Sağımda otur›"

---

* **12:29** Qanun. 6:4-5 ‡ **12:30** Sev – bəzi əlyazmalarda sev". Bu, əsas əmrdir. * **12:31** Lev. 19:18 * **12:32** Qanun. 4:35 § **12:33** Bütün ağlınla – bəzi əlyazmalarda bütün ağlınla, bütün varlığınla. * **12:36** Zəb. 110:1

deyib. 37 Davud özü Ona “Ağa” deyə müraciət edir.
O necə Davudun oğlu ola bilər?» Böyük izdiham
sevinclə Ona qulaq asırdı.

### *İsa ilahiyyatçıları məzəmmət edir (Mat. 23:5-7; Luka 20:45-47)*

38 İsa təlim öyrədərək dedi: «İlahiyyatçılardan
özünüzü qoruyun. Onlar uzun paltarlarda
gəzməyi, bazar meydanlarında salam almağı,
39 sinaqoqlarda baş kürsüləri, ziyafətlərdə yuxarı
başı tutmağı xoşlayarlar. 40 Onlar dul qadınların
evlərini yeyib-dağıdar və özlərini göstərmək üçün
uzun-uzadı dua edərlər. Bu adamların cəzası daha
ağır olacaq».

### *Dul qadının ianəsi (Luka 21:1-4)*

41 İsa məbədin ianə qutusunun qarşısında oturub
xalqın oraya necə pul atmasına baxırdı. Bir çox
varlı adam oraya böyük məbləğdə pul atırdı. 42 Bir
kasıb dul qadın da gəlib bir kodrant[**] məbləğində
iki lepton[††] pul atdı. 43 İsa şagirdlərini yanına çağırıb
onlara dedi: «Sizə doğrusunu deyirəm: bu kasıb dul
qadın ianə qutusuna hamıdan çox pul atdı. 44 Çünki
onların hamısı varlarının artıqlığından verdi, bu
qadın isə kasıblığına baxmayaraq, dolanmaq üçün
əlində nə varsa, hamısını verdi».

# 13

### *Axır zamanın əlamətləri (Mat. 24:1-28; Luka 21:5-24)*

---

** **12:42** Kodrant – pul vahidi. †† **12:42** Lepton – ən kiçik pul vahidi.

1 İsa məbəddən çıxarkən şagirdlərindən biri Ona
dedi: «Müəllim, bax nə gözəl daşlar, nə gözəl bi-
nalardır!» 2 İsa ona dedi: «Bu böyük binaları
görürsənmi? Onların daşı daş üstündə qalmaya-
caq, hamısı yerlə yeksan olacaq».
3 İsa məbədlə üzbəüz olan Zeytun dağında otu-
randa Peter, Yaqub, Yəhya və Andrey Ondan
ayrılıqda soruşdu: 4 «Bizə söylə, bu dediklərin nə
vaxt baş verəcək? Bunların hamısı başa çatmaq
üzrə olanda hansı əlamətlər olacaq?» 5 İsa on-
lara cavab verməyə başladı: «Ehtiyatlı olun, qoy
sizi heç kim aldatmasın. 6 Mənim adımla çox
adam gəlib "mən Oyam" deyərək çoxlarını al-
dadacaq. 7 Müharibələr və müharibə xəbərləri
eşidəndə təlaşa düşməyin. Bunlar baş verməlidir,
amma bu hələ hər şeyin axırı deyil. 8 Çünki
millət millətə, padşahlıq padşahlığa qarşı çıxacaq.
Yerbəyer zəlzələlər və aclıq* olacaq. Bunlar sanki
doğuş ağrılarının başlanğıcıdır.
9 *Amma siz ehtiyatlı olun. Adamlar sizi
məhkəmələrə çəkəcək, sinaqoqlarda döyəcəklər.
Onlara şəhadət etmək üçün siz Mənə görə valilərin
və padşahların qarşısında duracaqsınız. 10 Əvvəlcə
bütün millətlərə Müjdə vəz olunmalıdır. 11 *Sizi
aparıb məhkəməyə çəkəndə nə deyəcəyiniz barədə
qabaqcadan qayğı çəkməyin,† amma həmin vaxt
sizə nə bildirilərsə, onu danışın. Çünki danışan siz
yox, Müqəddəs Ruhdur. 12 Qardaş qardaşı, ata

* **13:8** Zəlzələlər və aclıq – bəzi əlyazmalarda zəlzələlər, aclıq və qarmaqarışıqlıqlar. * **13:9** Mat. 10:17-22; Luka 12:11-12 * **13:11** Luka 12:11-12 † **13:11** Qayğı çəkməyin – bəzi əlyazmalarda qayğı çəkməyin, götür-qoy etməyin.

övladını ölümə təslim edəcək. Övladlar ata-anasına
qarşı çıxıb onları edam etdirəcək. 13 Mənim adıma
görə hamı sizə nifrət edəcək. Amma axıracan dözən
xilas olacaq.
14 *Viranəlik‡ gətirən iyrənc şeyin heç olmamalı
yerdə qoyulduğunu gördüyünüz zaman – qoy ox-
uyan bunu anlasın – Yəhudeyada olanlar dağlara
qaçsın. 15 *Damda olan evindən nə isə götürmək
üçün aşağı enib evinə girməsin. 16 Tarlada olan üst
paltarını götürmək üçün geri qayıtmasın. 17 Həmin
günlər hamilələrin və körpə əmizdirənlərin vay
halına! 18 Dua edin ki, bu hadisə qış fəslində
baş verməsin. 19 *Çünki o günlərdə elə bir əzab-
əziyyət olacaq ki, Allahın yaratdığı bu kainatın
başlanğıcından indiyə qədər beləsi olmayıb və heç
olmayacaq da. 20 Əgər Rəbb o günləri qısaltmasaydı,
heç bir insan xilas ola bilməzdi. Amma Rəbb
seçilmişlərə – Öz seçdiyi insanlara görə o günləri
qısaldıb.
21 *O zaman əgər kimsə sizə desə ki, “bax,
Məsih buradadır” yaxud da “bax, oradadır”,
inanmayın. 22 Çünki yalançı məsihlər və yalançı
peyğəmbərlər törəyəcək. Onlar əlamətlər və
xariqələr göstərəcəklər ki, imkan taparlarsa,
seçilmişləri də aldatsınlar. 23 Amma siz ehtiyatlı
olun! Bax Mən sizə hər şeyi əvvəlcədən söyləmişəm.

### *Bəşər Oğlunun zühuru*
### *(Mat. 24:29-35; Luka 21:25-33)*

---

* **13:14** Dan. 9:27; 11:31; 12:11 ‡ **13:14** Viranəlik – bəzi əlyazmalarda Daniel peyğəmbərin bəhs etdiyi viranəlik (Mat. 24:15). * **13:15** Luka 17:31 * **13:19** Dan. 12:1; Vəhy 7:14 * **13:21** Luka 17:21,23

24 *Amma o günlərdə, o əzab-əziyyətdən sonra
Günəş tutulacaq,
Ay nurunu saçmayacaq,
25 Ulduzlar göydən töküləcək,
Səma cisimləri lərzəyə gələcək.

26 *O zaman onlar Bəşər Oğlunun buludlar
içində böyük qüdrət və izzətlə gəldiyini görəcək.
27 Onda Bəşər Oğlu mələklərini göndərəcək və yer
üzünün ucundan göyün ucuna qədər dörd külək
istiqamətindən Öz seçdiklərini toplayacaq.

28 Əncir ağacından ibrət alın: onun budağı
cücərib yarpaqlananda bilirsiniz ki, yay fəsli
artıq yaxındır. 29 Eləcə siz də bu şeylərin baş
verdiyini görəndə bilin ki, Bəşər Oğlu yaxındadır,
lap qapıdadır. 30 Sizə doğrusunu deyirəm: bu nəsil
ömrünü sona çatdırmazdan əvvəl bütün bunlar baş
verəcək. 31 Yer və göy keçib gedəcək, amma Mənim
sözlərim əsla keçib getməyəcək.

## *Bilinməyən gün və saat (Mat. 25:13-15; Luka 12:39-48)*

32 *Lakin o günü və o saatı nə səmadakı mələklər,
nə də Oğul bilir. Atadan başqa heç kim bilmir.
33 Ehtiyatlı olun, oyaq olun.§ Çünki bilmirsiniz
ki, o an nə vaxt gələcək. 34 *Bu, səyahətə çıxan
bir adama bənzəyir. Evindən ayrılarkən qullarına
səlahiyyət verir və hərəsinə bir iş tapşırır. Qapı
nəzarətçisinə də əmr edir ki, oyaq olsun. 35 *Ona

---

* **13:24** Yeş. 13:10; 34:4; Yez. 32:7; Yoel 2:10,31; 3:15; Vəhy 6:12-13
* **13:26** Dan. 7:13; Vəhy 1:7
* **13:32** Mat. 24:36
§ **13:33** Oyaq olun – bəzi əlyazmalarda oyaq olun, dua edin.
* **13:34** Luka 12:36-38
* **13:35** Mat. 24:42

görə də oyaq olun. Çünki ev sahibinin nə vaxt
– axşammı, gecə yarısımı, xoruz banlayandamı
yaxud sübh tezdənmi gələcəyini bilmirsiniz.
36 Qoy o qəfil gəlib sizi yatan görməsin. 37 Sizə
söylədiklərimi hamıya deyirəm, oyaq olun!»

# 14

### *İsanı öldürmək üçün sui-qəsd hazırlanır (Mat. 26:1-5; Luka 22:1-2; Yəh. 11:45-53)*

1 *Pasxa və Mayasız Çörək bayramına iki gün
qalmışdı. Başçı kahinlər və ilahiyyatçılar İsanı hiylə
ilə tutub öldürmək üçün bir yol axtarırdılar. 2 Onlar
deyirdilər: «Bunu bayramda etməyək, yoxsa xalq
arasında qarışıqlıq düşər».

### *İsa Bet-Anyada (Mat. 26:6-13; Yəh. 12:1-8)*

3 *İsa Bet-Anyada cüzamlı Şimonun evində süfrəyə
oturanda bir qadın Onun yanına gəldi və qadının
əlində içində çox bahalı xalis nard yağı olan ağ
mərmər qab var idi. Qadın qabı sındıraraq yağı
İsanın başına tökdü. 4 Bəziləri acıqlanıb bir-birlərinə
dedilər: «Bu ətir niyə boş yerə israf olunur? 5 Axı
bu ətiri üç yüz dinardan artıq qiymətə satıb pulunu
yoxsullara vermək olardı». Onlar qadını dan-
ladılar. 6 Lakin İsa dedi: «Qadını rahat buraxın. Niyə
onu incidirsiniz? O Mənim üçün gözəl bir iş gördü.
7 *Yoxsullar həmişə sizin yanınızdadır, istədiyiniz
vaxt onlara kömək edə bilərsiniz. Mənsə həmişə
yanınızda olmayacağam. 8 Qadın bacardığını etdi.

* **14:1** Çıx. 12:1-27 * **14:3** Luka 7:37-38 * **14:7** Qanun. 15:11

Mənim bədənimə dəfn üçün əvvəlcədən yağ çəkdi.
9 Sizə doğrusunu deyirəm: dünyanın hansı yerində
Müjdə vəz edilərsə, bu qadının etdiyi bu iş də
danışılacaq ki, o yada salınsın».

### *Yəhudanın xəyanəti*
### *(Mat. 26:14-16; Luka 22:3-6; Yəh. 13:18-30)*

10 O zaman On İki şagirddən biri olan Yəhuda
İskaryot İsanı başçı kahinlərə təslim etmək niyyəti
ilə onların yanına getdi. 11 Başçı kahinlər bunu
eşidərkən sevindilər və Yəhudaya pul verəcəklərini
vəd etdilər. O da İsanı təslim etmək üçün fürsət
axtarmağa başladı.

### *Axırıncı şam yeməyi*
### *(Mat. 26:17-30; Luka 22:7-23; Yəh. 13:21-30; 1Kor. 11:23-25)*

12 Pasxa quzusu qurban kəsildiyi Mayasız Çörək
bayramının ilk günü şagirdləri İsadan soruşdular:
«Sənin Pasxa yeməyin üçün haraya gedib hazırlıq
görməyimizi istəyirsən?» 13 İsa da şagirdlərindən
ikisini göndərdi və dedi: «Şəhərə girin, orada
qarşınıza səhənglə su daşıyan bir nəfər çıxacaq.
Onun ardınca gedin. 14 O hansı evə girərsə, oranın
sahibinə deyin: "Müəllim deyir: ‹Şagirdlərimlə
birgə Pasxa yeməyini yeyəcəyim qonaq otağım
haradadır?›" 15 Ev sahibi sizə yuxarı mərtəbədə
döşənib hazırlanmış böyük bir otaq göstərəcək.
Orada bizim üçün hazırlıq işləri görün». 16 Şagirdlər
yola çıxıb şəhərə getdilər. Hər şeyin Onun dediyi
kimi olduğunu gördülər və Pasxa yeməyi üçün
hazırlıq etdilər.

17 Axşam düşəndə İsa On İki şagirdi ilə birlikdə
gəldi. 18 *Onlar süfrəyə oturub yemək yeyərkən
İsa dedi: «Sizə doğrusunu deyirəm: sizlərdən biri –
Mənimlə yemək yeyən biri Mənə xəyanət edəcək».
19 Onlar kədərlənməyə başladılar və bir-bir On-
dan soruşdular: «Mən deyiləm ki?» 20 İsa onlara
dedi: «Siz On İki nəfərdən biridir. Mənimlə bir-
likdə çörəyini qaba batıran odur. 21 Bəşər Oğlu
Özü barəsində yazıldığı kimi gedir. Amma vay o
adamın halına ki, Bəşər Oğluna xəyanət edir! O
adam heç doğulmasaydı, onun üçün daha yaxşı
olardı».
22 Onlar yeyəndə İsa çörək götürdü, şükür duası
edib onu böldü və şagirdlərə verərək dedi: «Alın!
Bu Mənim bədənimdir». 23 Sonra bir kasa götürdü
və şükür edib onu da şagirdlərə verdi və hamısı
oradan içdi. 24 *İsa onlara dedi: «Bu, Əhdin*
bağlanması üçün çoxları uğrunda axıdılan Mənim
qanımdır. 25 Sizə doğrusunu deyirəm: Allahın
Padşahlığında təzəsini içəcəyim günə qədər üzüm
ağacının məhsulundan əsla içməyəcəyəm».
26 Onlar ilahi oxuyandan sonra çıxdılar və Zey-
tun dağına tərəf getdilər.

### *Peterin inkarı əvvəlcədən bildirilir (Mat. 26:31-35; Luka 22:31-34; Yəh. 13:36-38)*

27 *İsa şagirdlərinə dedi: «Hamınız Məni atıb
gedəcəksiniz,† çünki belə yazılıb:
“Çobanı vuracağam,

---

* **14:18** Zəb. 41:9 * **14:24** Çıx. 24:8; Yer. 31:31-34 * **14:24** Əhdin – bəzi əlyazmalarda Yeni Əhdin (Luka 22:20). * **14:27** Zək. 13:7 † **14:27** Məni atıb gedəcəksiniz – hərfi tərcümədə Məndə büdrəyəcəksiniz.

Qoyunlar pərən-pərən olacaq”.
28 *Amma Mən diriləndən sonra sizdən qabaq
Qalileyaya gedəcəyəm». 29 Peter Ona dedi: «Hamı
Səni atıb getsə də, mən belə etməyəcəyəm». 30 İsa
ona dedi: «Sənə doğrusunu deyirəm: bu gün, bu
gecə xoruz iki dəfə banlamazdan əvvəl sən Məni
üç dəfə inkar edəcəksən». 31 Amma Peter daha
qətiyyətlə danışdı: «Əgər Səninlə birlikdə ölməyim
lazım olsa belə, Səni əsla inkar etməyəcəyəm».
Bütün şagirdlər də belə dedilər.

### *Getsemani bağında*
### *(Mat. 26:36-46; Luka 22:39-46)*

32 Sonra Getsemani adlanan bir yerə gəldilər. İsa
şagirdlərinə dedi: «Mən dua edərkən siz burada
oturub-qalın». 33 O, Peteri, Yaqubu və Yəhyanı Özü
ilə apardı. Özündə bir həyəcan və narahatlıq hiss
etməyə başladı. 34 Onlara belə dedi: «Ürəyimi elə
dərin kədər bürüyüb, az qalır ki, ölüm. Burada
qalın və oyaq olun».

35 İsa bir qədər irəli getdi və üzüstə yerə qa-
panıb dua etdi ki, mümkündürsə, bu an Ondan
yan keçsin. 36 O belə dedi: «Abba – Ata, Sənin
üçün hər şey mümkündür. Bu kasanı‡ Məndən uza-
qlaşdır. Amma Mənim yox, Sənin iradən olsun».
37 İsa şagirdlərin yanına qayıdıb gördü ki, onlar
yatıb. O, Peteri səslədi: «Şimon, yatmısan? Məgər
bir saat oyaq qala bilməzdin? 38 Oyaq qalıb dua
edin ki, sınağa düşməyəsiniz. Ruh həvəsli, cisimsə

---

* **14:28** Mat. 28:16 ‡ **14:36** Kasa – İsanın çarmıxdakı ölümünün rəmzi.

gücsüzdür». 39 İsa yenə oradan uzaqlaşdı və eyni
sözləri təkrar edərək dua etdi.
40 Qayıdanda gördü ki, onlar yenə yatıb. Çünki
onların gözləri yumulurdu. Bilmədilər ki, İsaya nə
desinlər. 41 İsa üçüncü dəfə onların yanına qayıdıb
dedi: «Hələ də yatıb dincəlirsiniz? Bəsdir! Vaxt
yetişdi! Budur, Bəşər Oğlu günahkarların əlinə təslim
olunur. 42 Qalxın gedək. Budur, Mənə xəyanət
edən gəlir!»

### *İsa həbs olunur*
### *(Mat. 26:47-56; Luka 22:47-53; Yəh. 18:3-12)*

43 İsa hələ danışarkən On İki şagirddən biri olan
Yəhuda gəlib çıxdı. Onun yanında başçı kahinlərin,
ilahiyyatçıların və ağsaqqalların göndərdiyi əli
qılınclı və dəyənəkli bir dəstə adam var idi.
44 İsaya xəyanət edən Yəhuda onlara işarə ilə
bildirib demişdi: «Kimi öpsəm, İsa Odur. Onu
tutub möhkəm nəzarət altında aparın». 45 O
anda İsaya yaxınlaşıb «Rabbi!» deyərək Onu öpdü.
46 Yanındakı adamlar əl atıb İsanı tutdular. 47 İsanın
yanındakılardan biri qılınc çəkdi və baş kahinin
qulunu vurub qulağını qopartdı.
48 İsa onlara dedi: «Nə üçün quldur üstünə
gələn kimi qılınc və dəyənəklərlə Məni tutmağa
gəlmisiniz? 49 *Hər gün məbəddə sizin yan-
yörənizdə təlim öyrədirdim, heç Məni tutmadınız.
Amma qoy Müqəddəs Yazılar yerinə yetsin».
50 Onda hamı İsanı atıb qaçdı.

---

* **14:49** Luka 19:47-48; 21:37

51 Çılpaq bədənini kətan örtüklə bürüyən bir gənc
İsanın ardınca gedirdi. Əsgərlər onu yaxaladılar.
52 Amma o, kətan örtükdən sıyrılıb çılpaq qaçdı.

*İsa Ali Şuranın önündə*
*(Mat. 26:57-68; Luka 22:54-55,63-71; Yəh. 18:13-24)*

53 İsanı baş kahinin yanına gətirdilər. Başçı
kahinlərin hamısı, ağsaqqallar və ilahiyyatçılar
da oraya toplaşdı. 54 Peter uzaqdan baş
kahinin həyətinə qədər İsanın ardınca gedirdi.
O, mühafizəçilərlə birgə həyətdə, tonqalın ətrafında
oturub qızınırdı.
55 Başçı kahinlər və Ali Şuranın hamısı İsanı edam
etmək üçün Onun əleyhinə şahidlik ifadəsi axtarırdılar, amma tapa bilmirdilər. 56 Çoxları Onun
əleyhinə yalançı şahidlik etdi, lakin ifadələri bir-
birinə uyğun gəlmirdi. 57 *Bəziləri qalxıb Onun
əleyhinə yalançı şahidlik edərək dedilər: 58 «Biz
Onun belə dediyini eşitdik: "Mən əllə qurulan bu
məbədi dağıdıb üç gün ərzində əllə qurulmayan
başqa bir məbəd tikəcəyəm"». 59 Amma onların da
ifadələri bir-birinə uyğun gəlmirdi.
60 Baş kahin toplantı arasından ayağa qalxıb
İsadan soruşdu: «Sənin heç cavabın yoxdur? Onlar
Sənin əleyhinə bu nə ifadədir verirlər?» 61 Amma
İsa susmaqda davam etdi, heç cavab vermədi.
Baş kahin yenə Ondan soruşdu: «Xeyir-dua Sahibi
Olanın Oğlu Məsih Sənsənmi?» 62 *İsa ona dedi:
«Mənəm! Siz Bəşər Oğlunun Qüdrətli Olanın§

* **14:57** Yəh. 2:19 * **14:62** Dan. 7:13 § **14:62** Qüdrətli Olan – yəni Allah.

sağında oturduğunu və göyün buludları ilə gəldiyini
görəcəksiniz». 63 *Onda baş kahin əynindəki pal-
tarını cırıb dedi: «Artıq şahidlərə nə ehtiyacımız
var? 64 Siz Onun küfr söylədiyini eşitdiniz! Bəs
buna nə deyirsiniz?» Onların hamısı İsa üçün
hökm verdi ki, O, ölüm cəzasına layiqdir.
65 Bəziləri Onun üstünə tüpürməyə, Onun
gözlərini bağlayaraq yumruq vurmağa başladılar və
dedilər: «Peyğəmbərlik elə görək!» Mühafizəçilər də
tutub Ona şillə vurdular.

### *Peter İsanı inkar edir*
### *(Mat. 26:69-75; Luka 22:56-62; Yəh. 18:15-18,25-27)*

66 Peter aşağıda, həyətdə ikən baş kahinin
qarabaşlarından biri gəldi. 67 Qızınmaqda olan
Peteri görən kimi onu diqqətlə süzüb dedi: «Sən
də Nazaretli İsa ilə birlikdə idin». 68 Amma
Peter bunu inkar edərək dedi: «Bilmirəm və
başa düşmürəm, sən nə danışırsan». O, bayır
qapının önünə çıxdı və bu anda xoruz banladı.
69 Qarabaş Peteri görəndə yenə yanındakılara
deməyə başladı: «Bu da onlardandır». 70 Peter
yenə inkar etdi. Bir az sonra orada duranlar yenə
ona dedilər: «Doğrudan da, sən onlardansan, çünki
Qalileyalısan».** 71 Peter isə özünü qarğıyıb and
içərək dedi: «Dediyiniz o Adamı tanımıram».
72 Həmin anda xoruz ikinci dəfə banladı. Peter
İsanın «xoruz iki dəfə banlamazdan əvvəl sən Məni
üç dəfə inkar edəcəksən» dediyi sözü yadına saldı.
Ona görə ağlamağa başladı.

---

* **14:63** Lev. 24:16 ** **14:70** Qalileyalısan – bəzi əlyazmalarda Qalileyalısan, nitqin də eynidir.

# 15

*İsa Romalı vali Pilatın önündə*
*(Mat. 27:1-2,11-26; Luka 23:1-25; Yəh. 18:28-19:16)*

1 Səhər erkən başçı kahinlər, ağsaqqallar,
ilahiyyatçılar və Ali Şuranın hamısı dərhal məşvərət
edəndən sonra İsanın əl-qolunu bağlayaraq
Pilatın yanına aparıb ona təslim etdilər. 2 Pilat
Ondan «Yəhudilərin Padşahı Sənsənmi?» deyə
soruşdu. İsa cavabında ona dedi: «Sənin dediyin
kimidir». 3 Başçı kahinlər Onu çox şeydə ittiham
edirdilər. 4 Pilat Ondan yenə soruşdu: «Heç cavab
verməyəcəksənmi? Gör Səni nə qədər ittiham
edirlər!» 5 Amma İsa yenə də ona cavab vermədi.
Pilat buna heyrətləndi.

6 Hər Pasxa bayramında Pilat xalqın xahişi ilə
bir məhbusu azad edərdi. 7 Üsyan zamanı adam
öldürən üsyançılarla birlikdə Barabba adlı bir nəfər
də həbs olunmuşdu. 8 Xalq Pilatın yanına çıxıb
ondan* xahiş etməyə başladı ki, həmişəki kimi on-
ların istəyini yerinə yetirsin. 9 Pilat onlara cavab
verərək dedi: «İstəyirsiniz, sizin üçün Yəhudilərin
Padşahını azad edim?» 10 Çünki başçı kahinlərin
İsanı paxıllıqdan təslim etdiyini bilirdi. 11 Ancaq
başçı kahinlər xalqı qızışdırdılar ki, İsanın yox,
Barabbanın azad olmasını xahiş etsinlər.

12 Pilat yenə onlardan soruşaraq dedi: «Bəs nə
istəyirsiniz? Yəhudilərin Padşahı dediyiniz bu
Adama nə edim?» 13 «Onu çarmıxa çək!» deyə yenə

---

* **15:8** Pilatın yanına çıxıb ondan – bəzi əlyazmalarda bağırıb Pilatdan.

bağırdılar. 14 Pilat «Axı O nə pislik edib?» deyə
soruşdu. Onlarsa «Onu çarmıxa çək!» deyə daha
ucadan bağırdılar. 15 Xalqı razı salmaq istəyən
Pilat onlar üçün Barabbanı azad etdi. İsanı isə
qamçılatdıqdan sonra çarmıxa çəkilməyə təslim etdi.

### *Əsgərlər İsanı təhqir edir (Mat. 27:27-31; Yəh. 19:2-3)*

16 Əsgərlər İsanı həyətdən içəriyə, yəni vali
sarayına apardılar. Bütün alayı topladılar. 17 Ona
tünd qırmızı bir xalat geyindirdilər və tikanlardan
bir tac hörüb başına qoydular. 18 «Yəhudilərin
Padşahı sağ olsun!» deyərək İsanı salamlamağa
başladılar. 19 Sonra qamışla Onun başına vurub
Ona tüpürdülər və önündə diz çökərək səcdə qıldılar.
20 Onu ələ salandan sonra tünd qırmızı xalatı
əynindən çıxarıb Öz paltarlarını geyindirdilər.
Sonra Onu çarmıxa çəkmək üçün bayıra apardılar.

### *İsa çarmıxa çəkilir (Mat. 27:32-44; Luka 23:26-43; Yəh. 19:17-25)*

21 *O vaxt Şimon adlı Kirenalı bir nəfər kənd
yerindən gəlib oradan keçirdi. O, İsgəndər və
Rufusun atasıdır. Onu İsanın çarmıxını daşımağa
məcbur etdilər.
22 İsanı Qolqota adlanan yerə gətirdilər. «Qolqota»
«Kəllə yeri» deməkdir. 23 Ona mirra† ilə qarışıq
şərab vermək istədilər, amma O imtina etdi.
24 *İsanı çarmıxa çəkdilər. Paltarlarını isə «kimə
nə düşdü-düşdü» deyə püşk ataraq aralarında

---

* **15:21** Rom. 16:13 † **15:23** Mirra – yəni ağrı kəsən dərman.
* **15:24** Zəb. 22:18

bölüşdürdülər.
25 Üçüncü saat‡ idi ki, İsanı çarmıxa çəkdilər.
26 Onun üzərində ittihamını göstərən belə yazı var idi: «Yəhudilərin Padşahı».
27 Onunla birlikdə biri sağında, biri də solunda iki qulduru da çarmıxa çəkdilər.
28 §

29 *Gəlib-keçənlər başlarını yırğalayıb Ona böhtan ataraq «Nə oldu, ey məbədi dağıdıb üç gündə tikən!
30 İndi Özünü xilas et və çarmıxdan düş!» deyirdilər.
31 Başçı kahinlər də ilahiyyatçılarla birgə eyni şəkildə İsanı ələ salaraq bir-birlərinə deyirdilər: «Başqalarını xilas edirdi, amma Özünü xilas edə bilmir!
32 İsrailin Padşahı Məsih qoy indi çarmıxdan düşsün ki, biz də görüb iman edək». İsa ilə birlikdə çarmıxa çəkilənlər də Onu təhqir edirdilər.

### *İsanın ölümü*
### *(Mat. 27:45-56; Luka 23:44-49; Yəh. 19:25-30)*

33 Altıncı saatdan** doqquzuncu saata qədər†† bütün yer üzünə qaranlıq çökdü.
34 *Doqquzuncu saatda İsa uca səslə nida edərək dedi:
«Elohi, Elohi, lema şabaqtani?»
Bu «Ey Allahım, Allahım, niyə Məni tərk etdin?» deməkdir.
35 Orada dayananların bəzisi bunu eşidərkən dedi: «Baxın, İlyası çağırır».
36 *Bir nəfər qaçıb bir süngəri şərab sirkəsi ilə doldurdu və bir

---

‡ **15:25** Üçüncü saat – hazırkı vaxtla səhər saat doqquz. § **15:28** Çarmıxa çəkdilər – bəzi əlyazmalarda çarmıxa çəkdilər. 28 Müqəddəs Yazılarda yazılan yerinə yetdi: «Üsyankarlara tay tutuldu» (Luka 22:37). * **15:29** Zəb. 22:7; 109:25; Mark 14:57-58; Yəh. 2:19 ** **15:33** Altıncı saat – hazırkı vaxtla günorta saat on iki. †† **15:33** Doqquzuncu saat – hazırkı vaxtla günortadan sonra saat üç. * **15:34** Zəb. 22:1 * **15:36** Zəb. 69:21

qamışın ucuna keçirərək İsaya verdi ki, içsin və
dedi: «Onu rahat buraxın, görək İlyas gəlib Onu
çarmıxdan düşürəcəkmi?» 37 İsa uca səslə qışqırıb
son nəfəsini verdi.
38 *O anda məbədin pərdəsi yuxarıdan aşağıya
qədər iki yerə parçalandı. 39 İsanın qarşısında du-
ran yüzbaşı Onun son nəfəsini‡‡ belə verdiyini
gördükdə «doğrudan da, bu Adam Allahın Oğlu idi»
dedi.
40 *Olub-keçənlərə uzaqdan baxan qadınlar da
var idi. Məcdəlli Məryəm, kiçik Yaqubun və Yusifin
anası Məryəmlə Şalomit də onların arasında idi.
41 İsa hələ Qalileyada olanda bu qadınlar Onun
ardınca getmiş və Ona xidmət etmişdilər. Onunla
birgə Yerusəlimə gələn xeyli qadın da orada idi.

### *İsanın dəfni*
### *(Mat. 27:57-61; Luka 23:50-56; Yəh. 19:38-42)*

42 O gün Hazırlıq günü, yəni Şənbədən əvvəlki gün
idi. Artıq axşam düşəndə 43 Ali Şuranın hörmətli
üzvlərindən biri olan, Allahın Padşahlığını gözləyən
Arimateyalı Yusif gəldi. O cəsarət edib Pilatın
yanına getdi və İsanın cəsədini istədi. 44 Pilat İsanın
belə tez ölməsinə heyrət etdi və yüzbaşını yanına
çağırıb soruşdu: «O çoxdanmı ölüb?» 45 Yüzbaşıdan
vəziyyəti öyrənəndən sonra cəsədi Yusifə verdi.
46 Yusif kəfən aldı, cəsədi çarmıxdan endirib kəfənə
bükdü və qayada qazılmış qəbirə qoydu. O, qəbirin
ağzına bir daş yuvarladı. 47 Məcdəlli Məryəm və

* **15:38** Çıx. 26:31-33 ‡‡ **15:39** Son nəfəsini – bəzi əlyazmalarda nida edib son nəfəsini. * **15:40** Luka 8:2-3

Yusifin anası Məryəm baxıb cəsədin hara qoyulduğunu gördülər.

# 16

*İsanın dirilməsi*
*(Mat. 28:1-8; Luka 24:1-9; Yəh. 20:1-10)*

1 Şənbə günü keçəndən sonra Məcdəlli Məryəm,
Yaqubun anası Məryəm və Şalomit ətirlər aldılar
ki, gedib İsanın cəsədinə çəksinlər. 2 Həftənin ilk
günü* səhər tezdən, günəş doğanda onlar qəbirin
yanına gəldilər. 3 Onlar bir-birlərinə deyirdilər:
«Görəsən qəbirin ağzındakı daşı bizim üçün
kim kənara yuvarlayacaq?» 4 Başlarını qaldırıb
baxanda gördülər ki, daş kənara yuvarlanıb.
Bu daş nəhəng idi. 5 Qəbirə girib sağ tərəfdə ağ
xalat geyinmiş bir gəncin oturduğunu gördülər
və heyrətə gəldilər. 6 Bu şəxs onlara dedi: «Siz
heyrətlənməyin! Çarmıxa çəkilmiş Nazaretli İsanı
axtarırsınız. O dirilmişdir! Burada yoxdur. Bax
bu Onu qoyduqları yerdir. 7 *İndi isə gedin, Onun
şagirdlərinə və Peterə belə söyləyin: "İsa Qalileyaya
sizdən qabaq gedir. Sizə dediyi kimi Onu orada
görəcəksiniz"». 8 Qadınlar qəbirdən çıxıb qaçdılar.
Onları bir lərzə bürümüşdü, mat qalmışdılar.
Qorxularından heç kimə bir söz demirdilər.

*İsa şagirdlərə görünür*
*(Mat. 28:9-10; Luka 24:13-35; Yəh. 20:11-18)*

9 İsa həftənin birinci günü səhər tezdən,
diriləndən sonra əvvəlcə yeddi cin qovduğu

---

* **16:2** Həftənin ilk günü – yəni bazar günü. * **16:7** Mat. 26:32; Mark 14:28

Məcdəlli Məryəmə göründü. 10 Məryəm gedib
İsanın yanında olub, indi isə yas tutaraq ağlayanlara
xəbər verdi. 11 Amma onlar İsanın diri olduğunu və
Məryəmə göründüyünü eşidərkən inanmadılar.

12 Bundan sonra İsa kənd yerinə gedən yoldan
keçən onlardan ikisinə başqa surətdə göründü.
13 Onlar geri qayıdıb o birilərinə xəbər verdilər,
amma o biriləri də bunlara inanmadılar.

### *İsa şagirdlərinə tapşırıq verir*
### *(Mat. 28:16-20; Luka 24:36-49; Yəh. 20:19-23; Həv. 1:6-8)*

14 Nəhayət, İsa süfrəyə oturan On Bir şagirdə
göründü; onları imansızlıqlarına və ürəklərinin in-
adkar olduğuna görə məzəmmət etdi, çünki Onun
diri olduğunu görənlərə inanmamışdılar. 15 İsa
şagirdlərinə dedi: «Dünyanın hər tərəfinə gedin,
bütün yaradılışa Müjdəni vəz edin. 16 İman edib
vəftiz olan kəs xilas olacaq, iman etməyənsə
məhkum olacaq. 17 İman edənləri isə bu əlamətlər
müşayiət edəcək: Mənim adımla cinləri qova-
caqlar, yeni dillərdə danışacaqlar, 18 ilanları əlləri
ilə götürəcəklər, öldürücü zəhər içsələr belə, onlara
təsir etməyəcək, əllərini xəstələrin üzərinə qoyacaq
və onlar şəfa tapacaq».

### *İsanın göyə qaldırılması*
### *(Luka 24:50-53; Həv. 1:9-11)*

19 Beləcə Rəbb İsa onlarla danışandan sonra göyə
qaldırıldı və Allahın sağında oturdu. 20 Şagirdlərsə
gedib hər yerdə Müjdəni vəz etdilər. Rəbb onlarla

birgə işləyirdi, onları müşayiət edən əlamətlərlə kəlamı təsdiqləyirdi.†

† **16:20** Ən qədim yunan əlyazmalarında bu ayələr yoxdur.

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http:// creativecommons.org/ licenses/ by-nc-nd/ 3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.

You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.

This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.

You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 21 Feb 2024 from source files dated 31 Aug 2023

5d1dd449-0589-5c75-ab0e-6b96786f2985